Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

21-23 SENTYABR 2019-cu il

№ 168 (4066)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# MÜSƏLMAN ÖLKƏSİNİN MƏŞHUR «BÜRC XƏLİFƏ»Sİ «ERMƏNİ RƏNGİNDƏ»?...

■ səh. 7 ■

ABŞ Dövlət katibi Maykl Pompeo Azərbaycan Prezidentinə təbrik məktubu göndərdi...

■ səh. 2 ■

Paşinyanın populist Qarabağ bəyanatlarının pozucu rolu barədə daxili və xarici rəylər intensivləşir

■ səh. 9 ■

KTMT baş katibi Zasın Bakı səfərindən sonra erməni mediasının qaralama kampaniyası qızışıb

■ səh. 4 ■

Paşinyanın Krasnodar psixiatriya xəstəxanasında müalicə olunduğuna dair sənəd meydana çıxıb

■ səh. 7 ■

Bir neçə ABŞ konqresmeni Fransanın erməni toruna düşmüş bir-iki parlament üzvündən "nümunə götürdü"...

■ səh. 8 ■

Paşinyan Ermənistanda işsizlərin sayını 17, intiharları 20 faiz "artırıb"...

■ səh. 11 ■

Dünya reallıqları Azərbaycanın neft-büdcə qiymət siyasətini yenidən müzakirəyə qaytarır...

■ səh. 12 ■

Azərbaycanda orqan transplantasiyası ilə bağlı bütün problemlər həllini tapır - istiqaməti deputat Əhliman Əmiraslanov göstərdi...

■ səh. 13 ■



■ səh. 6 ■

## Azərbaycanın neft-qazından bəhrələnmək istəyən Rumıniyadan erməniyönümlü rəsmi qərar...

KİVDF

KİVDF-ni qərəzlə qaralayanlara Vasif Talıbovdan zərbə - Naxçıvanda da KİVDF yaradılır...

■ səh. 3 ■



Ermənistanda Paşinyan üçün şok effektli «Qaynar payız»...

■ səh. 10 ■

Naxçıvanlıların Türkiyədə guya deportasiya olunduğu barədə yayılan şayiələrdə düşmən barmaqları...

■ səh. 5 ■

■ səh. 4 ■

Baş prokuror Zakir Qaralov Beynəlxalq Prokurorlar Assosiasiyasının yüksək fəxri mükafatı ilə təltif olundu...



■ səh. 4 ■

BŞBPİ-nin rəisi Mirqafar Seyidov Bakının bir sıra polis şöbə və bölmələrinə yeni təyinatlar etdi



■ səh. 3 ■

Azərbaycanın İsraildə öz səfirliyini açması indi realdırmı?



■ səh. 14 ■

Ölkə banklarına manatla yatırılan depozitlərin məbləğində düşündürücü dinamika var



■ səh. 13 ■

Dönər zəhərlənmələrinin qarşısını almaq problemə çevrilir



## Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərini təbrik edib

**Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərinə təbrik məktubu ünvanlayıb.**

Təbrikdə deyilir: "Hörmətli neft sənayesi işçiləri! Sizi ölkəmizin həyatında mühüm strateji rol oynamış "Əsrin müqaviləsi"nin 25 illiyi və peşə bayramınız olan "Neftçilər Günü" münasibətilə ürəkdən təbrik edirəm.

"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü" haqqında 1994-cü il 20 sentyabr tarixli Saziş müstəqil Azərbaycanın gələcək inkişafının başlıca mənbəyinə çevrilmiş, onun dinamik templə sonrakı davamlı yüksəlişini təmin etmişdir.

Dövlət müstəqilliyimizin ilk illərindəki gərgin geosiyasi şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi qətiyyəti nəticəsində imzalanmış və yüksək dəyərləndirilərək "Əsrin müqaviləsi" adını qazanmış bu Saziş respublikamızın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft anlaşması idi. Müqavilə bütövlükdə regionun enerji xəritəsini köklü şəkildə dəyişərək Xəzər dənizi hövzəsində əməkdaşlığa əlverişli zəmin yaratmışdır. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu enerji strategiyasının ölkəmizin qısa vaxtda dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq mövqelərinin güclənməsində müstəsna əhəmiyyəti vardır.

Azərbaycan nefti və qazı bu gün dünyada sülhün, təhlükəsizliyin və tərəqqinin amillərindəndir. Ölkəmizin təşəbbüsü və liderliyi ilə Cənub Qaz Dəhlizi çərçivəsində gerçəkləşdirilən işlər Azərbaycanın potensialını nümayiş etdirir. Respublikamız, eyni zamanda, aparıcı xarici neft şirkətləri ilə ötən illərdə uğurlu əməkdaşlıq formatı reallaşdırmışdır. Tərəfdaşların təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin yenidən işlənməsi və sazişin müddətinin 2050-ci ilədək uzadılması bunun aydın təzahürüdür. Regional və qlobal əhəmiyyətli neft, qaz layihələrində ölkəmizi layiqincə təmsil edən və dünya enerji bazarında mövqelərini möhkəmləndirən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin həyata keçirdiyi investisiya layihələri isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirir.

"Əsrin müqaviləsi"nin misilsiz uğurları neftçilərimizin fədakar əməyinin bəhrəsidir. Məhz onların sayəsində Azərbaycan neft sənayesinin geniş infrastrukturuna malik olub, dünyada neft ölkəsi kimi tanınmışdır. Neftlə bağlı ən müxtəlif istiqamətlər üzrə görkəmli alim və mütəxəssislərimiz zəngin neft-qaz sərvətlərinin Vətənimizin yüksəlişi naminə istifadəsi üçün nəhəng işlər görmüş, ölkəmizin neft salnaməsinə parlaq səhifələr yazmışlar.

Azərbaycan neftçilərinin indiki nəsli olaraq siz onların yolunu böyük müvəffəqiyyətlə davam etdirirsiniz. Bu yolda hamınıza yeni nailiyyətlər arzulayıram".

## ABŞ Dövlət katibi Maykl Pompeo Azərbaycan Prezidentinə təbrik məktubu göndərdi...

**ABŞ Dövlət katibi Maykl Pompeo Azərbaycan Prezidentinə təbrik məktubu göndərib. Məktubda deyilir:**



- Hörmətli cənab Prezident,

Amerika Birləşmiş Ştatları adından Sizi və Azərbaycan Respublikasının xalqını Əsrin Müqaviləsinin imzalanmasının iyirmi beş illik ildönümü münasibətilə təbrik etmək istəyirəm. Bu il qeyd olunan iyirmi beş illik ildönümü Azərbaycanın öz enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasına dair öhdəliyə sadiq olduğu zaman yer alacaq. Son iyirmi beş il ərzində Birləşmiş Ştatlar Azərbaycanın enerji ehtiyatlarının inkişafına, Avropa və qlobal enerji təhlükəsizliyinin qorunmasına və müstəqil dövlət kimi inkişafına dair göstərdikləri səylərdə sadiq tərəfdaşı olmuşdur. 1994-cü ildə sözügedən müqavilənin imzalanması və Bakı-Tiflis-Ceyhan neft kəmərinin inşası sayəsində Azərbaycan dünya neft bazarında vacib təchizatçıya çevrilmiş və Xəzər və Aralıq dənizləri arasında ilk enerji əlaqəsinin yaradılmasında vacib rol oynamışdır.

Avropanın enerji təhlükəsizliyində strateji rol oynayan Cənub Qaz Dəhlizinə təkan verən Azərbaycan yenidən aparıcı rol oynamağı davam edir. Prezident Tramp 26-ci Xəzər Neft və Qaz Sərgisi münasibətilə ünvanladığı məktubda qeyd etdiyi kimi, biz Sizin səylərinizi dəstəkləyir və Azərbaycanın iqtisadi uğurunun bölgədə sabitliyin və firavanlığın inkişafı üçün vacib olmasına inanırıq. Enerji sahəsində olan uğurlu tərəfdaşlığımız bizim həmçinin iqtisadi, təhlükəsizlik, insan haqlarının irəliləməsi, fundamental azadlıqlar, və demokratik idarəçilik sahələrini əhatə edən strateji münasibətlərimizə də müsbət töhfə vermişdir. Birləşmiş Ştatlar sözügedən bütün sahələrdə göstərdiyimiz fəaliyyətlərin davam etdirilməsi və dərinləşdirilməsi niyyətindədir. Yenidən bu mühüm ildönümü münasibətilə Sizi təbrik edirəm.

*Hörmətlə,*
*Maykl R. Pompeo*

# Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib




**Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib.**

Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısı tədbirdə söylədiyi nitqində əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. Azərbaycanın dünyada sənaye üsulu ilə, həmçinin dənizdə neft hasil edən ilk ölkə olduğunu vurğulayan dövlət başçısı o vaxtdan bəri neftçilərimizin ölkənin iqtisadi qüdrətinin artırılmasındakı rolunu yüksək qiymətləndirib. Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində o vaxtkı rəhbərliyin səriştəsizliyi nəticəsində yaranmış iqtisadi-siyasi böhranın ölkəni ağır vəziyyətə saldığını və belə bir zamanda xalqın tələbilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və cəsarəti sayəsində Azərbaycanın xilas olması naminə göstərdiyi xidmətlərdən danışıb. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasını tarixi hadisə adlandıran, o zaman qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün göstərilən səyləri xatırladan Prezident İlham Əliyev həmin dövrdə riskli bir dövlət kimi tanınan Azərbaycana xarici investorları cəlb etmək üçün Heydər Əliyevin göstərdiyi sarsılmaz iradəni xüsusi qeyd edib.

"Əsrin müqaviləsi"nin imzalanmasının ölkəmizin sonrakı inkişafındakı və Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasındakı həlledici rolundan danışan Prezident İlham Əliyev neftdən əldə edilən gəlirlərin ilk növbədə xalqın rifahının yaxşılaşmasına yönəltmək kimi əsas məqsədə nail olunduğunu vurğulayıb. Azərbaycanın karbohidrogen ehtiyatlarını xarici bazarlara çıxarmaq üçün çəkilmiş neft-qaz kəmərləri vasitəsilə ixrac olunan sərvətimizin ölkəyə gətirdiyi faydalardan bəhs edən dövlət başçısı "Əsrin müqaviləsi"nin uğurlu icrasının əhalinin məşğulluğunun təminində, yeni nəsil ixtisaslı neftçi kadrların hazırlanmasında, sosial infrastrukturun tamamilə yenilənməsində, məcburi köçkün, şəhid və aztəminatlı ailələrin sosial problemlərinin həllində, Azərbaycanın kosmik ölkəyə çevrilməsində və respublikamızın beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasındakı həlledici rolundan söz açıb. Neftdən əldə olunan gəlirlərin qeyri-neft sektorunun tərəqqisinə da təkan verdiyini deyən Prezident İlham Əliyev neft-qaz sektorunun inkişafının davamlılığının bundan sonra da prioritet olacağını bildirib.

Sonra ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer Birləşmiş Ştatların Dövlət katibi Maykl Pompeonun məktubunu oxuyub.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Birləşmiş Krallığın Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi Yelizaveta Trussun məktubunu oxuyub.

Daha sonra BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış edib.

# Heydər Əliyevin 26 il əvvəlki sentyabr qərarı...

**Düz 26 il əvvəl -1993-cü ilin sentyabrında Azərbaycan MDB üzvlüyünü rəsmiləşdirməklə müstəqil dövlətin sistemli xarici siyasətinin formalaşdırılmasında ilk prinsipial və məntiqli addımı atdı.**



O zaman Heydər Əliyevin dəqiq hesablamalara və beynəlxalq mübasibətlərin aydın məntiqinə söykənən bu qərarının məlum siyasi dairələr tərəfindən isterika ilə qarşılanmasına baxmayaraq, çox qısa zaman intervalı Heydər Əliyevin nə qədər dəqiq mövqe seçdiyini hamıya göstərdi. Sübut olundu ki, o dövr üçün ən böyük kontinental dövlətlərarası təşkilat olan MDB nəinki Azərbaycanın müstəqilliyi üçün təhlükə törətmir, əksinə, Azərbaycan bu qurumdan uzaq qaldıqca dövlət müstəqilliyimizi daha da möhkəmləndirməyə kömək edə bilən bir sıra iqtisadi, siyasi və hərbi-təhlükəsizlik faktorlarından məhrum oluruq. Əlavə olaraq müstəqillik üçün özündə təhlükə saxlayan bəzi potensial risqlərin fəallaşmasına münbit şərait yaranırdı. Heydər Əliyevin çətin daxili siyasi şərtlər çərçivəsində MDB ilə bağlı verdiyi qərar müstəqilliyimizin bütün tarixi boyu oynadığı rola görə alternativsiz addım kimi dəyərləndirilməlidir.

MDB üzvlüyü sonrakı dövrdə Azərbaycan diplomatiyası qarşısında ABŞ-a və Avropaya yönəlik yeni və geniş fəaliyyət istiqamətləri açmaq üçün etibarlı dayaq sütununa çevrildi. Azərbaycan MDB üzvlüyünə qərar verməsəydi, neft kontraktları, NATO ilə, Avropa Birliyi ilə, müxtəlif beynəlxalq sülh missiyaları və antiterror koalisiyaları ilə əməkdaşlıq əlaqələri indiki qədər dərinləşə bilməzdi.

MDB üzvlüyü Azərbaycanın təkcə beynəlxalq qlobal münasibətlər sistemində balanslı duruşunu təmin etmədi, eyni zamanda regional münasibətlər sistemində ölkəmizin mövqeyini stabilləşdirdi və mütərəqqi regional proseslər üçün, region xalqlarının rifahı üçün Azərbaycanın malik olduğu imkanların fəallaşdırılmasında həlledici rol oynadı. Məhz MDB üzvlüyü Azərbaycana imkan verdi ki, erməni təcavüzünün artan xətt üzrə irəliləyişinin qarşısını alsın, imkan verdi ki, regionda iqtisadi, logistik və ticarət xarakterli ikitərəfli, üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatlarının yaransın. Azərbaycan şimal-cənub, şərq-qərb nəqliyyat dəhlizlərini də məhz bunun sayəsində reallaşdıra bildi.

Azərbaycanın MDB üzvlüyü hələ bundan sonra da uzun onilliklər boyu öz aktuallığını saxlayacaq və ən müxtəlif istiqamətlərdə öz təsirli rolunu oynayacaq. Xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ probleminin həlli üçün də MDB hələ imkanlarının heç də hamısı üzə çıxarılmamış geosiyasi platformadır.

***Aydın QULİYEV***

# KİVDF-ni qərəzlə qaralayanlara Vasif Talıbovdan zərbə - Naxçıvanda da KİVDF yaradılır...

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) yaradılıb. Ali Məclisin Sədri Vasif Talıbovun müvafiq fərmanı ilə Fondun müşahidə şurasının üzvləri təsdiq olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının üzvləri aşağıdakı şəxslərdir:**




Hüseynli Ülvi Mötəbər oğlu - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Sultanova Mehriban Paşa qızı - "Şərq qapısı" qəzetinin baş redaktoru, Əliyev Rauf Feyzulla oğlu - "Şərq qapısı" qəzeti baş redaktorunun müavini, Canbaxşıyev Səməd Canbağış oğlu - Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin İnformasiya təminatı və saytlarla iş redaksiyasının baş redaktoru, Qənbərov Qafar Tahar oğlu - "Nuh yurdu" qəzetinin redaktoru.

Çox maraqlıdır ki, bəzi millət vəkilləri və azsaylı jurnalist KİVDF-ni qərəzli şəkildə tənqid edəndə deyirdilər ki, qurum özünü doğrultmadığı üçün ləğv olunmalıdır. Ancaq, göründüyü kimi, KİVDF özünü fəaliyyəti ilə doğrultduğuna görə həmin praktikadan Naxçıvan MR-də də istifadə etmək qərarına gəlinib. Naxçıvanda KİVDF-nin yaradılması nəyin əlaməti sayıla bilər?

## Azər Həsrət: "Naxçıvanda KİVDF qurulması çox təqdirəlayiqdir, hətta bunu bir qədər də gecikmiş sayıram"

Media məsələləri üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan Prezidenti medianın inkişafı üçün əlindən gələnə varsa, hamısını edir: "10 əvvəl KİVDF-nin yaradılması bizim ənənəvi medianı, sözün həqiqi mənasında, ayaqda saxladı. Ötən 10 ilə nəzər salsaq görərik ki, həmin qurum qarşısına qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib. Bunun da nəticəsində Azərbaycan mediasının aparıcı vahidləri onun mövcudluğundan çox məmnundur. Bu illər ərzində külli miqdarda vəsaitin ayrılması boşuna getmədi. Nəticədə qəzetlərimiz özünü qoruyub saxlaya bildi. Bilirsiniz ki, onlayn medianın bazara girməsindən sonra qəzetlərin vəziyyəti bir qədər də pisləşdi. Onlar çox çətin vəziyyətə düşdülər. Yazılı mətbuatımızı birdən-birə belə çətinliklə baş-başa buraxa bilməzdik. Məhz KİVDF bu çətinliklərin öhdəsindən gəlməyi bacardı. Eyni zamanda, qurum jurnalistlərin sosial problemlərinin həlli istiqamətində də ciddi addımlara imza atıb. Bu baxımdan da mən KİVDF-nin özünü tam doğrultduğu qənaətindəyəm. Bəzi adamların prosesə tənqidi yanaşması da ola bilər. Ancaq bu da öz həddini aşmamalıdır. Onun lazımsız olduğunu demək üçün heç bir əsas yoxdur".

Media ekspertinin qənaətincə, Naxçıvanda KİVDF qurulması çox təqdirəlayiqdir, hətta bunu bir qədər də gecikmiş sayır: "Naxçıvan Ermənistanla əhatə olunmuş ərazimizdir. Əhali üçün Azərbaycanın digər əraziləri ilə əlaqə saxlamaq çox çətindir. Bu baxımdan düşünürəm ki, Naxçıvana əlavə dəstəyin edilməsi yerinə düşür. Orada çox gözəl media nümunələrinin fəaliyyət göstərdiyini görürük, çoxlu sayda peşəkar həmkarımız var. Belə bir qurumun yaradılmasının oradakı KİV-in inkişafına, media işçilərinin sosial vəziyyətlərinin daha da yaxşılaşmasına müsbət mənada mühüm təsiri olacaq".

**Məhəmmədəli QƏRİBLİ**

# Azərbaycanın İsraildə öz səfirliyini açması indi realdırmı?

**Xəbər verdiyimiz kimi, Ermənistan İsraildə səfirlik açmaq üçün hərəkətə keçib. İsrail Xarici İşlər Nazirliyi rəsmi İrəvanın səfirlik açmaq qərarını alqışladığını bildirib. Bu barədə İsrail XİN-i rəsmi açıqlama da yayıb. Azərbaycan isə İsraillə daha isti münasibətlərə malik olsa da, nədənsə, bu ölkədə səfirlik açmağa tələsmir.**



Azərbaycanın bu addımı müxtəlif amillərlə izah olunur. Ümumiyyətlə, Azərbaycanın indiki məqamda İsraildə səfirlik açması üçün hansı maneələr var və səfirliyin açılmasının ölkəmiz üçün nə kimi ziyanları ola bilər?

Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı Yevda Abramov bildirib ki, hər bir dövlətin hansısa ölkədə səfirlik açması onun xarici siyasətinin leytmotividir, dövlət başçısının siyasətidir:

"Ermənistanın əvvəl də İsraildə səfirliyi olub. Sonradan müəyyən məsələlər üzündən o səfirlik bağlandı. Bu da ölkələrin xarici siyasətində olan prioritetlərdən asılıdır. Ermənistan Cənubi Qafqazda düzgün siyasət aparmayıb. Ermənistanın İranla münasibətləri İsraili qıcıqlandırıb. Nəticədə bu ölkə səfirlikdən imtina edib. Ermənistanın İsraildə səfirlik açmaq məsələsi yenidən gündəmdə olsa da, bu o demək deyil ki, səfirliyin açılması yaxın günlərdə baş tutacaq. Sadəcə, rəsmi Yerevan öz təkliflərini verib".

Yevda Abramov Ermənistanın İsraildə səfirlik açmaq qərarından danışarkən dilənçilik etdiyini də vurğulayıb: "Rəsmi Yerevan 2016-cı ilin aprelindən bu işlə məşğuldur. Hətta səhvini başa düşüb üzr istəmək səviyyəsinə qədər düşərək, İsraildən silah da dilənib. Baş nazirdən də aşağı səviyyəli erməni məmurlar İsrailə gedərək silah istəsələr də, istəklərinə nail ola bilməyiblər. Hesab edirəm ki, bu məsələdən sensasiya yaratmaq olmaz. Bu, böyük faciə deyil. Ermənistanın İsraildə səfirlik açmasının Azərbaycana heç bir ziyanı yoxdur".

Yəhudi parlamentari bildirib ki, Ermənistanın səfirlik açmaq istəyini Azərbaycanla müqayisə etmək doğru deyil: "Bizim İsraildə səfirlik açmamağımız ölkə Prezidentinin kompetensiyasına daxil olan incə məsələdir. Bizi bu məsələdə Ermənistanla eyni səviyyədə qoymaq düzgün deyil. Məsələnin bu formada qoyuluşundan narazıyam. Azərbaycanın geosiyasi maraqları, yerləşdiyi mövqe başqa, Ermənistanın tutduğu mövqe isə tamam başqadır. Unutmaq olmaz ki, biz İslam Təşkilatının üzvüyük. Söhbət ondan getmir ki, bu məsələdə İran faktoru da akkreditə olunub. İki ölkə arasındakı əlaqələr İsrailin Gürcüstandakı səfirliyi vasitəsilə həyata keçirilir. Ermənistanın həmin ölkədə səfirlik açmağa tələsməsi onların yeni siyasət qurmaq istəmələri ilə əlaqəlidir. Yaxın Şərqdə ermənilər çox yaşayırlar. Həmin regionun ən qüdrətli ölkəsi İsraildir. Ermənistan orada səfirlik açmaqla, eyni zamanda, Yaxın Şərqdəki erməniləri yaxşı koordinasiya etməyi düşünür. Azərbaycanın İsraildə səfirliyinin olmamasına baxmayaraq, iki ölkə arasındakı münasibətlər çox yüksəkdir. İki ölkə arasında heç vaxt ciddi problem ortaya çıxmayıb. Azərbaycanın İsraildə bu günə qədər səfirlik açmamasının səbəbi İran amili ola bilər. O zaman İsrail məsələni başqa cür qoya bilər. Ermənistan İranla dostluqda heç də bizdən aşağı səviyyədə deyil".

## "Etiraz edənlərə təqdim etməyə ciddi dəlillərimiz var"

## Hatəm Cabbarlı: "Ölkəmiz üçün belə bir addımın atılması heç bir risq tələb etmir"

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cari ilin əvvəlindən başlayaraq Ermənistanın xarici siyasət kursunuda bir sıra ölkələrdə səfirlik açmaq prioritet elan olunub: "Son məlumata görə, Ermənistan gələn ilin əvvəlinə kimi İsraildə səfirlik açacaq. Qeyd edək ki, İsrailin Ermənistanda səfiri yoxdur, həmin ölkənin Gürcüstandakı səfiri, eyni zamanda, Ermənistanda ilə bağlıdır. Ölkəmiz düşünüb ki, bu, İranı qıcıqlandırar. Artıq mənə elə gəlir ki, bununla bağlı heç bir problem yoxdur. Hazırda bu məsələ gündəmə gətirilə bilər. Hətta İranın etirazı olsa da, onu haqsız saymaq olar. Çünki Ermənistanla onun münasibətləri inkişaf edə-edə İrəvan İsraildə səfirlik açır. Deməli, lazım gələndə İran qıcıqlanmaya da bilir. Azərbaycan hökuməti İranla münasibətlərini daha soyuqqanlı, praqmatik əsaslara söykənərək aparmalı və İsraildə səfirliyimizin açılmasında maraqlı olmalıdır. İsrail Azərbaycan üçün çox lazımlı ölkədir. Ölkəmiz üçün belə bir addımın atılması heç bir risq tələb etmir. Etiraz edənlər üçün onlara təqdim etməyə əlimizdə ciddi faktlar var. Burada heç bir hüquqi maneə də yoxdur. Ehtimal edirəm ki, yaxın zamanlarda Azərbaycan İsraildə səfirliyini aça bilər".

**Məhəmmədəli QƏRİBLİ**



## BŞBPİ-nin rəisi Mirqafar Seyidov Bakının bir sıra polis şöbə və bölmələrinə yeni təyinatlar etdi

**Bakının bir sıra şöbə və bölmələrinin rəis müavinləri vəzifələrinə təyinatlar olub. "Trend"in məlumatına görə, bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov əmrlər imzalayıb.**

İdarə rəisinin müvafiq əmrləri ilə polis baş leytenantı Nicat Məmmədov Xəzər Rayon Polis İdarəsinin (RPİ) 1-ci Polis Şöbəsinin, polis polkovnik-leytenantı Əli Həsənov Suraxanı Rayon Polis İdarəsinin 31-ci Polis Bölməsinin, polis mayoru Şahbaz Səfərov Suraxanı RPİ-nin 30-cu Polis Şöbəsinin, polis kapitanı Eyvaz Mürvələdov Xətai RPİ-nin 34-cü Polis Şöbəsinin, polis mayoru Xəyal Kazımov Səbail RPİ-nin 39-cu Polis Bölməsinin rəis müavinləri vəzifələrinə təyin ediliblər.

Məlumatı Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev təsdiqləyib.

## Türkiyə Səfirliyi azərbaycanlıların qardaş ölkədən deportasiya xəbərinə qəti aydınlıq gətirdi...

**Türkiyə Cumhuriyyətinin Azərbaycandakı Səfirliyi azərbaycanlıların qardaş ölkədən kollektiv şəkildə deport edilməsi xəbərlərinə aydınlıq gətirib.**

TC-nin Bakıdakı Səfirliyinin Mətbuat Müşavirliyindən bununla bağlı "Bakı-Xəbər"ə göndərilən açıqlamada deyilir: "Bu gün bəzi xəbər saytlarında Türkiyədə qeyri-leqal şəraitdə yaşayan Azərbaycan vətəndaşlarının kollektiv şəkildə deport edilməyə başlandığına dair xəbərlər dərc olunub. Həmin xəbərlər həqiqəti əks etdirmir.

Türkiyədə yaşayan azərbaycanlıların problemləri məsələsi iki gün əvvəl vitse-prezident cənab Fuat Oktay və Baş nazir cənab Novruz Məmmədovun sədrliyilə keçirilən Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasında da müzakirə edilib və problemlərin həlli istiqamətində lazımi addımların atılması qərara alınıb".

## Ailəsinə zorakılıq edənlərin və onları dəstəkləyənlərin əlinə hakimiyyət keçsə...

**Gənc fəal Nahid Cəfərov AXC sədrinin müavini Fuad Qəhrəmanlının ailəsinə qarşı vəhşiliyinə haqq qazandıranlara cavab verib.**

"Trend"in məlumatına görə, Nahid Cəfərov bildirib ki, F.Qəhrəmanlını müdafiə edənlər özləri zorakılığı dolayısı ilə təbliğ edirlər: "Bu vəhşiliyə - yəni buna başqa ad verə bilmədim - "Bu onun ailə məsələsidir", "Bundan Cəbhəyə qarşı istifadə etmək olmaz" deyənlərə demək istəyirəm ki, Selcan güclü bir qızdır. Onunla bir dəfə təhsili ilə bağlı ünsiyyətimiz də olub. Adamın necə güclü xarakterə malik olduğunu gözlərimlə görmüşəm. Selcan artıq ona işgəncələr verən atasından xilas olub və Fuad Qəhrəmanlının artıq onu incitmək və ona zərər yetirmək şansı yoxdur. Selcan artıq Hollandiyadadır və onun ciddi bir dəstəyə də ehtiyacı yoxdur. Müəyyən qədər gərginlikləri var və bu da keçib gedər".

N.Cəfərov qeyd edib ki, adam siyasi iddiası olan, hakimiyyəti dəyişib onun yerinə keçmək istəyən bir partiyanın sədr müavinidir. Sabah 100 minlərlə Selcan kimi uşağın taleyi ilə bağlı qərar vermək mexanizminə və gücə sahib olmaq iddiasındadır: "Adamın əlində indi sadəcə fiziki gücü var və şəxsi mənfəəti üçün bundan doğma övladına qarşı istifadə edib. Sabah adamın əlində hakimiyyət gücü olsa, o zaman nələr edəcəyini bir düşünün".

Gənc fəal əlavə edib ki, Selcanın bu etiraflarından sonra Fuad Qəhrəmanlı, Əli Kərimli və Səadət Cahangir dərhal istefa verib siyasətdən getməlidirlər: "İndi cəbhəçilər gündəmi dəyişmək üçün əllərindən gələni edəcəklər, buna uymayın. Bu bir daha göstərir ki, bu insanlar saxtadırlar və onların apardıqları mübarizə də saxtadı. Liberal dəyərlər, insan hüquqları və ifadə azadlığının nə demək olduğunu bilməyən insanlar, ailəsində diktatorluq edən, öz şəxsi övladının, həyat yoldaşının hüquqlarını malik olduğu fiziki güclə boğan bir insan və onu müdafiə edənlər ölkəyə diktatura gətirəcəklər, demokratiya deyil".

**Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirir. Respublika Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Azərbaycanın prokurorluq orqanları dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 172-dən çox dövlətin prokurorluq orqanlarının üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığı davam etdirir və bu qurumun fəaliyyətinə öz töhfəsini verir.**

# Baş prokuror Zakir Qaralov Beynəlxalq Prokurorlar Assosiasiyasının yüksək fəxri mükafatı ilə təltif olundu...

*Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən baş iclasda qərar qəbul edildi...*

Assosiasiya tərəfindən dövri olaraq təşkil edilən beynəlxalq səviyyəli mötəbər tədbirlərin davamı kimi, sentyabrın 14-dən 18-dək Argentina Respublikasının paytaxtı Buenos-Ayresdə BPA-nın İcraiyyə Komitəsinin növbəti iclası, 24-cü İllik Konfransı və Ümumi Yığıncağı keçirilib. "Müxtəlif hüquq sistemləri üzrə beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilmiş konfransda 100 ölkəni təmsil edən 500-dən artıq iştirakçı - müxtəlif dövlətlərin prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının, habelə beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak edib.

Yüksək səviyyəli tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

BPA İcraiyyə Komitəsinin sentyabrın 14-də keçirilmiş növbəti iclasında bir sıra təşkilati xarakterli məsələlər müzakirə edilib. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən iclasda komitə üzvləri tərəfindən cari il mayın 15-17-də Bakıda BPA-nın və Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda keçirilmiş beynəlxalq seminar istər prokurorluq orqanları əməkdaşlarının, istərsə də hakimlərin peşəkarlığının artırılması və effektivliyin təmin edilməsi baxımından faydalı tədbir kimi vurğulanıb. Tədbirin ölkəmizdə yüksək səviyyədə təşkilindən məmnunluq ifadə edilib.

Assosiasiyanın Senatının iclasında iştirakçılara Azərbaycan Respublikasının Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, BPA-nın senatoru və fəxri üzvü Fikrət Məmmədovun dərin salamlarını çatdıran K.Əliyev qurumun təşkilati



məsələləri və inkişaf perspektivləri ilə bağlı müzakirələrdə fəal iştirak edib.

Sentyabrın 15-də Assosiasiyanın 24-cü İllik Konfransının və Ümumi Yığıncağının açılış mərasimində Argentinanın Buenos-Ayres Muxtar Şəhər Baş nazirinin müavini Dieqo Santilli, Şəhər Prokurorluğunun Baş prokuroru Luis Çevasko və BPA-nın prezidenti Gerhard Yaroş çıxış edib.

Tədbirdə Azərbaycanın nümayəndə heyəti fəal və səmərəli iştirak edib.

Silsilə tədbirlərin davamı olaraq, sentyabrın 17-də Kamran Əliyevin həmsədrliyi ilə BPA-nın Anti-Korrupsiya Prokurorları Şəbəkəsinin (NACP) xüsusi maraq qrupunun növbəti sessiyası keçirilib. "Korrupsiya hüquqpozmalarına qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilmiş tədbirdə beynəlxalq ekspertlər qismində ABŞ, Sinqapur, Honq-Konq, Argentina və Keniya prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri və digər nümayəndələri iştirak edib.

Həmin tədbirdə çıxış edən nümayəndə heyətinin rəhbəri Kamran Əliyev Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə fəaliyyətinin dövlətimizin başçısı İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykəndiyini qeyd edib, həyata keçirilmiş mütərəqqi hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat verib. Çıxışda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələyə keçidini nəzərdə tutan 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmandan irəli gələn vəzifələr və həyata keçirilən tədbirlər qeyd edilib. Həmçinin, ölkəmizin antikorrupsiya strategiyasında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirildiyi vurğulanıb. Nümayəndə heyətinin rəhbəri çıxışında, həmçinin, beynəlxalq qurumların korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl nailiyyətlərinin öyrənilməsi, bunun cari fəaliyyətdə qarşıya çıxan çətinliklərin həllində və fəaliyyətin təkmilləşdirilməsində səmərəli tətbiqi məsələlərinə də geniş yer verib.

Bundan başqa, həmin tədbirlər çərçivəsində sentyabrın 17-də ölkələrimiz arasında müsbət təcrübə mübadiləsi və əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etməsi nəzərə alınaraq, Argentina Respublikasının Buenos-Ayres Muxtar Vilayətinin prokurorluğu ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi arasında korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Sentyabrın 18-də BPA-nın Baş iclası keçirilib. İclasda qurumun İcraiyyə Komitəsinin təklifi ilə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə insan və vətəndaş hüququ və azadlıqlarının qorunmasında, qanunun aliliyinin təmin edilməsində, BPA-nın inkişafına verdiyi müstəsna xidmətlər, qurumla Azərbaycan prokurorluğu arasında işgüzar münasibətlərin yaradılmasında göstərdiyi fəaliyyəti nəzərə alınmaqla Beynəlxalq Prokurorlar Assosiasiyasının yüksək mükafatı ilə təltif edilib - qurumun fəxri üzvü seçilib.

Həmin mükafatın rəsmi təqdimetmə mərasimində çıxış edən assosiasiyanın vitse-prezidenti Kamran Əliyev ölkəmizin BPA ilə daim uğurlu əməkdaşlıq etdiyini bildirərək, Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun qurulmuş çoxillik əməkdaşlıq münasibətlərinə xüsusi önəm verdiyini bir daha xatırladaraq, mükafata görə Azərbaycan Respublikasının hökuməti və Baş prokuroru adından minnətdarlığını ifadə edib.

Tədbirdə bir sıra mövzulara baxılması ilə yanaşı, 2013-cü ildən etibarən BPA-nın prezidenti vəzifəsində olan Qerxard Yaroş səlahiyyət müddətinin başa çatması ilə bağlı assosiasiyada tutduğu hazırkı vəzifəsindən azad olunub. Koreya Respublikasının Busan şəhərinin prokuroru Vanq Çeol-kyu səsvermə nəticəsində yekdilliklə həmin vəzifəyə seçilib.

Tədbirin yekununda BPA-nın növbəti İllik Konfransının 2020-ci ilin sentyabrında Yunanıstanın paytaxtı Afinada keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyətinin üzvləri BPA-nın yeni seçilmiş prezidenti Vanq Çeolkyu və qurumun digər rəsmiləri ilə, o cümlədən, Estoniya, Yunanıstan, Keniya və Qazaxıstanın baş prokurorları, eləcə də Türkiyə, Kanada, Çin, Rusiya, Böyük Britaniya, ABŞ, Ukrayna, Koreya Respublikası və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək, cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri üzrə ikitərəfli əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparıblar.

Azərbaycan Respublikasının Argentinadakı səfiri Rəşad Aslanov tədbirlərdə iştirak edib.

# Naxçıvanlıların Türkiyədə guya deportasiya olunduğu barədə yayılan şayiələrdə düşmən barmaqları...

**Bir neçə gündür ki, guya naxçıvanlıların İstanbuldan kütləvi deportasiya olunduğu ilə bağlı yalan məlumatlar tirajlanır. Məlumatın ilkin mənbəyini araşdırdıqda məlum olur ki, həmin informasiya heç bir konkret qaynağa əsaslanmır, sadəcə, fərziyə kimi ortaya atılıb.**

## *Samir Adıgözəlli: "Yaxşı olardı ki, bəzi jurnalistlər sensasiya naminə belə həssas məsələ ilə manipulyasiya etməsinlər"*



Məsələnin ən maraqlı aspekti isə budur ki, bəzi saytlar həmin məlumatı belə başlıqla veriblər: "Naxçıvanlıları Türkiyədən kütləvi şəkildə qovdular". Gəlin bir anlıq götürək ki, məlumat doğrudur. Bizim media öz vətəndaşını niyə bu şəkildə aşağılamalıdır? Əslində, müdafiəsinə qalxmalı olduğu vətəndaşına "qovdular" deməklə, sanki buna sevindiyi ilə bağlı mövqe ortaya qoymuş olurlar.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfirliyi azərbaycanlıların qardaş ölkədən kollektiv şəkildə deport edilməsi xəbərlərinə aydınlıq gətirib. TC-nin Bakıdakı Səfirliyinin Mətbuat Müşavirliyindən bununla bağlı "Bakı Xəbər"ə göndərilən açıqlamada deyilir: "Bəzi xəbər saytlarında Türkiyədə qeyri-leqal şəraitdə yaşayan Azərbaycan vətəndaşlarının kollektiv şəkildə deport edilməyə başlandığına dair xəbərlər dərc olunub. Həmin xəbərlər həqiqəti əks etdirmir.

Türkiyədə yaşayan azərbaycanlıların problemləri məsələsi iki gün əvvəl Vitse-prezident cənab Fuat Oktay və Baş nazir cənab Novruz Məmmədovun sədrliyilə keçirilən Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasında da müzakirə edilib və problemlərin həlli istiqamətində lazımi addımların atılması qərara alınıb".

Naxçıvanlıların Türkiyədən kütləvi şəkildə qovulmaları ilə bağlı dezinformasiyanın yayılması hansı məqsədlərə xidmət edə bilər?

Əslən Naxçıvandan olan diaspor fəalı Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, şəxsən bu məlumatla maraqlanıb: "Bu xəbəri eşidən kimi narahat oldum. Türkiyə ilə bizim yaxın münasibətlərimiz var. İstanbuldakı dostlara, orada yaşayan naxçıvanlılara zəng vurub maraqlandım. Belə bir halın olmadığını dedilər. Ən maraqlısı isə budur ki, bu məsələdə naxçıvanlılar ifadəsi xüsusilə qabardılır. Sanki belə təəssürat yaratmağa çalışırlar ki, guya naxçıvanlılara Türkiyədə Azərbaycanın digər regionlarından fərqli olan münasibət var. Türkiyə ilə bizim qardaşlıq münasibətimiz var və buna heç kim xələl gətirə bilməz. Təbii, bu, heç bir ölkənin vətəndaşına əsas vermir ki, qardaş ölkədə qanunları pozsun. Belə elementlərin olmayacağına isə kimsə zəmanət verə bilməz. Yəni ayri-ayrı qanunu pozan şəxslərə qarşı tətbiq edilən hər hansı qanuni tələbi kütləvi şəkildə bir regionun və ya ölkənin vətəndaşlarına şamil edə bilmərik.

Bunu sırf təxribat xarakterli məlumat sayıram. Türkiyənin səfiri də belə məlumatların dezinformasiya olduğunu rəsmən bəyan etdi. Naxçıvanla da əlaqə saxlamışam, orada da kütləvi deportasiyanın olduğunu inkar edirlər. Yaxşı olardı ki, bəzi jurnalistlər sensasiya naminə belə həssas məsələ ilə manipulyasiya etməsinlər".

***Məhəmmədəli QƏRİBLİ***



## Azərbaycan və Ermənistan XİN başçıları sentyabrın 23-də Nyu Yorkda görüşəcəklər

**Sentyabrın 22-də Nyu York şəhərində Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşəcək.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Sentyabrın 23-də isə Azərbaycan və Ermənistan Xarici işlər nazirləri arasında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyilə görüşün keçirilməsi nəzərdə tutulur.

## İƏT-in Baş katibi Paşinyanın 5 avqust bəyanatını ifşa etdi

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Ermənistan baş nazirinin 5 avqust 2019-cu il tarixli bəyanatı ilə bağlı dərin narahatlıq ifadə edib.**



Baki-xeber.com-un xəbərinə görə, İƏT Baş katibi Yusef bin Ahmad Al-Otaimin Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə bu ilin 5 avqustunda səfər edərək orada səsləndirdiyi bəyanatla bağlı dərin narahatlığını ifadə edən açıqlama ilə çıxış edib.

Baş katib Ermənistan rəhbərliyinin bu bəyanatı və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü pozan əməllərinin beynəlxalq hüququn prinsiplərinə və beynəlxalq ictimaiyyətin möqeyinə məhəl qoymadığını və regional sülh və təhlükəsizliyə hədə təşkil etdiyini qeyd edib.

**O, münaqişənin sülh yolu ilə həlli üzrə BMT və İƏT Nizamnamələrinin müddəalarına, Helsinki Yekun Aktına, BMT TŞ-nin 1993-cü il tarixli qətnamələrinə, İƏT-in müxtəlif qətnamələrinə istinad edərək, Ermənistan Respublikasını münaqişənin sülh yolu ilə həlli üçün BMT TŞ-nin müvafiq qətnamələri əsasında Azərbaycan Respublikası ilə sülh danışıqlarına çağırıb.**

# Sosial şəbəkələrdə söyüş-təhqirlərlə bağlı ictimaiyyət adından qəti çağırış edildi




**Sentyabrın 19-da "Boulevard Hotel"də "Sosial şəbəkələrdə söyüş, təhqir və böhtana YOX deyək" adlı "dəyirmi masa" keçirilib.**

Tədbiri giriş sözü ilə Mili Məclisin deputatı Çingiz Qənizadə açıb. "Dəyirmi masa"nın iştirakçıları adından son dövrlərdə sosial şəbəkələrdə, xüsusilə "YouTube"da əxlaqi dəyərlərə sığmayan söyüş, təhqir və böhtan xarakterli çıxışlarla bağlı bəyanat verilib.

"Son dövrlər sosial şəbəkələrdə, xüsusilə "Facebook" və "YouTube" vasitəsilə əxlaqi dəyərlərə sığmayan söyüş, təhqir və böhtan xarakterli çıxışların şahidi oluruq. Xüsusilə də həmin çıxışlara münasibət bildirən və şərh yazan sosial şəbəkə istifadəçiləri dilə gətirilməsi belə mümkün olmayan söyüş, təhqiramiz ifadələr işlədirlər. Milli-mənəvi və əxlaqi dəyərlərimizdən uzaq olan bu cür halların belə davam etməsi hiddət doğurur və yolverilməzdir.

Biz bu mətnə imza edənlər, respublikanın hüquqmühafizə orqanlarına müraciət edərək sosial şəbəkələrdə ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına yönələn, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq və əhali arasında vahimə yaradan, insanları istənilən qanunazidd hərəkətlərə çağıran, o cümlədən, söyüş, təhqir və böhtanlara yol verən şəxslər barəsində ciddi tədbirlərin görülməsini xahiş edirik.

Hər bir vətəndaşımızın, tələbə və gənclərimizin, xüsusi olaraq məktəblilərin təlim-tərbiyəsinə və psixologiyasına mənfi təsir göstərən bu cür halları qəti şəkildə pisləyir, istər xaricdə, istərsə də ölkə daxilində bu cür hərəkətlərə yol verən şəxslərdən söyüş, təhqir və böhtanlardan əl çəkməyi, bu hərəkətləri dayandırmağı tələb edirik.

Azərbaycanın hər bir vətəndaşını - ziyalılarını və ağsaqqallarını, kütləvi informasiya vasitələrinin rəhbərlərini, hüquq müdafiəçilərini, QHT və ictimaiyyət nümayəndələrini susmamağa, bu cür hallara qarşı etiraz səslərini ucaltmağa, söyüş, təhqir və böhtanlara YOX deməyə çağırırıq!"

# Azərbaycanın neft-qazından bəhrələnmək istəyən Rumıniyadan erməniyönümlü rəsmi qərar...

***Buludxan Xəlilov:** "Rumıniya parlamentində hazırlanan və gündəliyə çıxarılan bu bədnam qanun layihəsinin ləğvinə nail olunmalıdır"*



**Dünya mədəniyyətinə heç bir dəyər bəxş etməyən ermənilər öz tarixlərini "qədimləşdirmək" üçün dəridən-qabıqdan çıxırlar. Müxtəlif xalqların mədəniyyətini, dəyərlərini, eləcə də əlifbasını oğurlayan ermənilərin, əslində, özlərinin heç nəyi yoxdur. Məlumdur ki, hətta dəfələrlə müxtəlif xarici alimlər Ermənistanın bayrağının və əlifbasının oğurluq olduğunu qeyd ediblər.**

Saxta erməni əlifbasını dünyaya "qədim əlifba", qondarma erməni dilini isə "qədim dil" kimi qəbul etdirmək üçün ermənilər hər vasitəyə əl atırlar.

Ermənistan KİV-nin yaydığı məlumata görə, Rumıniya Senatı 12 oktyabr tarixinin ölkədə "Erməni dili, əlifbası və mədəniyyəti" günü kimi qeyd edilməsi ilə bağlı qanun layihəsini qəbul edib. Bu barədə Ermənistanın Rumıniyadakı səfiri Sergey Minasyan məlumat verib. Məlumata görə, qanun layihəsi Rumıniya parlamentinin deputatı Varujana Pambukçiyan və Varujana Voskanyanın təklifi əsasında gündəliyə çıxarılıb.

Rumıniyanın daxili qanunvericiliyinə görə, hansısa bir qanun layihəsinin qüvvəyə minməsi üçün ölkə Prezidenti tərəfindən imzalanmalıdır. Bundan da belə çıxır ki, Rumıniya Prezidenti bununla bağlı qərarı imzalayarsa, bu ölkədə 12 oktyabr "Erməni dili, əlifbası və mədəniyyəti" günü kimi qeyd ediləcək.

Rumıniya parlamenti hansı məqsədlə belə bir addım ata bilər?

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Xarici İşlər Nazirliyi, eləcə də Azərbaycanın Rumıniyadakı səfirliyi bu məsələnin reallaşmasının qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirməlidirlər. "Azərbaycanın Rumıniyadakı səfirliyi bununla bağlı bu ölkənin hökumətinə müraciət etməli və məsələnin çözülməsinə nail olmalıdır. Digər tərəfdən, Rumıniyanın Azərbaycandakı səfirliyi də bu ölkənin parlamentində hazırlanan qanun layihəsi ilə bağlı izahat verməlidir. Özü də bu izahat elmi cəhətdən əsaslandırılmalıdır. Mesrop Maştosun hazırladığı saxta erməni əlifbasının əsl mahiyyəti rumıniyalılar üçün də aydınlaşdırılmalıdır. Onlar əsaslandırmalıdırlar ki, nə üçün belə bir saxta əlifbanı dəyərləndirirlər.

Hesab edirəm ki, Azərbaycanın Xarici İşlər Nazirliyi, eləcə də Azərbaycanın Rumıniyadakı səfirliyi, eyni zamanda da Rumıniyanın Azərbaycandakı səfirliyi birgə bu işlərə ciddi şəkildə nəzarət etməli və növbəti erməni saxtakarlığının tam olaraq həyata keçirilməməsi üçün səylərini birləşdirməlidirlər. Fikrimcə, Rumıniya parlamentində hazırlanan və gündəliyə çıxarılan bu bədnam qanun layihəsinin ləğvinə nail olunmalıdır. Bu qanun layihəsi ləğv edilməsə, ermənilər daha çox saxtakar əməllərə əl atacaqlar. Onlar bu gün əlifbalarını, dillərini, mədəniyyətlərini "qədimləşdirməklə" həm Rumıniya hökumətini, həm də dünya birliyini aldatmaq niyyəti güdürlər, bildiyimiz kimi, buna müəyyən qədər nail olurlar da. Ermənilər saxta yollarla öz saxta əlifbalarının tarixini qədimə aparırlar və bunun qarşısı alınmalıdır. Çünki bu, Azərbaycanın ziyanına olan məsələdir" - deyə B.Xəlilov qeyd etdi.

Azərbaycanla Rumıniya arasında iqtisadi və digər sahələrdə ikitərəfli əməkdaşlığın olduğunu deyən B.Xəlilovun sözlərinə görə, Rumıniya parlamenti tərəfindən gündəliyə çıxarılan bu layihənin gerçəkləşməsinin qarşısı alınmalıdır. "Rumıniya və Azərbaycan arasında həmişə yüksək iqtisadi və humanitar əlaqələr mövcud olub, bunu münasibətlər də günü-gündən inkişaf edir. Lakin Rumıniya parlamentində 12 oktyabr tarixinin bu ölkədə "Erməni dili, əlifbası və mədəniyyəti" günü kimi qeyd edilməsi ilə bağlı qanun layihəsinin hazırlanması və gündəliyə çıxarılması olduqca mənfi haldır. Ümumiyyətlə, dünya tarixində ilk dəfədir hansısa bir dövlətin, xalqın dili, əlifbası və mədəniyyəti ilə əlaqədar başa bir ölkədə belə bir qanun layihəsi hazırlanıb. Təəssüf ki, bu da Rumıniya dövlətinin parlamentində baş verib, xoşagələn hal deyil. Deyim ki, Rumıniyada elə də çox erməni yaşamır, yaşasaydı belə, orada xüsusi olaraq "Erməni dili, əlifbası və mədəniyyəti" gününün təsis edilməsi qətiyyən doğru olmazdı. Bu məsələnin Rumıniya parlamentinin gündəliyinə çıxarılması birbaşa erməni diasporunun təsiri ilə baş verib. Xarici ölkələrdəki erməni diasporu gecə-gündüz təbliğat aparır və dövlət qurumlarına təsir etməyi bacarır. Erməni diasporunun apardığı təbliğat o qədər güclüdür ki, ermənilər öz saxta əlifbalarını "qədimləşdirməyə" cəhd edirlər. Görünür, erməni diasporu Rumıniya parlamentinin üzvlərini inandırıb ki, erməni əlifbası dünyanın "ən qədim əlifbasıdır", erməni dili və mədəniyyəti "qədim"dir. Rumıniya parlamentində də belə bir günün təsis edilməsi, qeyd olunması ilə bağlı qanun layihəsi hazırlanıb. Bu, erməni diasporunun gücünün göstəricisidir ki, o hətta parlamentə də təsir edə bilir. Bunu etiraf etmək lazımdır. Onlar erməni mədəniyyətinin "qədim olduğunu", "yazı mədəniyyətlərinin qədimlərə gedib çıxdığını", əlifba tarixlərinin "qədimliyini" dünyaya bu yolla çatdırmaq istəyirlər. Bu böyük bir siyasətdir, özü də Azərbaycanın ziyanına işləyən bir siyasətdir, biz bundan dərs götürməliyik. Gözləməməliyik ki, bədnam qonşularımız hansısa "uğurlu siyasət" aparırlar və biz də onlara cavab verək. Biz də öz mədəniyyətimizi, dilimizi, ədəbiyyatımızı bu cür təbliğ etməliyik. Azərbaycan parlamentində Rumıniya-Azərbaycan dostluq qrupu var.

Bu qrup Rumıniya parlamentində bir araşdırma aparmalı, onlara sorğu göndərməlidir. Parlamentdəki Azərbaycan-Rumıniya dostluq qrupunun üzvləri həmkarlarından izahat tələb etməlidirlər ki, dünyada bu qədər əlifba, 200 suveren dövlət olduğu halda, nə üçün saxta erməni əlifbası, dili və mədəniyyəti ilə bağlı xüsusi günün qeyd edilməsi barədə parlamentinizdə belə bir qanun layihəsi hazırlanıb?

**Bu izahatı tələb etməyə Azərbaycanın haqqı var, çünki bu ölkənin Azərbaycan neftində, qazında marağı var, burada onların şirkətləri fəaliyyət göstərir, digər tərəfdən də hər iki ölkə arasında dostluq əlaqələri mövcuddur".**

*İradə SARIYEVA*

# Müsəlman ölkəsinin məşhur "Bürc Xəlifə"si "erməni rəngində"?...

**Ermənilər dünya ictimaiyyətinin diqqətini özlərinə cəlb etmək üçün müxtəlif kələklərə əl atırlar. Onlar bu gün nəinki Avropa, Qərb ölkələrində, eləcə də müsəlman dövlətlərində də öz xeyirlərinə müəyyən işlər görülməsinə nail ola bilirlər.**

*"Bu dövlət islam ölkəsidirsə, birmənalı olaraq, islam həmrəyliyi nümayiş etdirməlidir"*

**Əli Orucov:** *"Təcavüzkar dövlət olan Ermənistanın dövlət müstəqilliyi günündə "Bürc Xəlifə"nin bu ölkənin bayrağının üç rəngində işıqlandırılması qınanmalıdır"*

Birləşmiş Ərəb Əmirliklərində yerləşən və dünyanın arxitektura möcüzələrindən sayılan "Bürc Xəlifə" (Bürc Dubay) sentyabrın 21-də, saat 21:10-da Ermənistanın dövlət müstəqilliyi günü münasibətilə bu ölkənin bayrağının üç rəngi ilə işıqlandırılacaq. Bu barədə Ermənistan kütləvi informasiya vasitələri bu ölkənin Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) səfirliyinə istinadən məlumat yayıblar.

Məsələyə münasibət bildirən ekspertlərin fikrincə, BƏƏ-nin bir islam dövləti kimi belə bir addım atması qınanmalıdır. Ekspertlər hesab edirlər ki, Ermənistanın müstəqillik günü münasibətilə "Bürc Xəlifə" tikilisinin bu ölkənin bayrağının rəngində işıqlandırılması, əslində, islam həmrəyliyinə vurulan zərbədir. BƏƏ-nin belə bir addım atmamalı olduğunu qeyd edən ekspertlərin fikrincə, nəinki BƏƏ, eləcə də başqa dövlətlər işğalçı ölkə olan Ermənistana hər hansı formada dəstək göstərməməlidirlər.

AMİP təmsilçisi, politoloq Əli Orucov hesab edir ki, "Bürc Xəlifə"nin Ermənistan bayrağının rəngində işıqlandırılmasına qərar verilməsi, ən azından, mənəvi cəhətdən düzgün addım deyil. "Çox təəssüflər olsun ki, bəzi islam dövlətləri islam həmrəyliyi nümayiş etdirmirlər. Azərbaycanın ərazi bütövlüyünü qəsb edən və təcavüzkar dövlət olan Ermənistanın dövlət müstəqilliyi günündə "Bürc Xəlifə"nin bu ölkənin bayrağının üç rəngində işıqlandırılması qınanmalıdır. Bu olduqca xoşagəlməz haldır və biz buna təəssüf edirik. Yalnız Birləşmiş Ərəb Əmirlikləri deyil, həmçinin, İran da hər zaman Ermənistanla əməkdaşlıq edir. Biz Birləşmiş Ərəb Əmirlikləri hökumətinin qəbul etdiyi bu qərarı



pisləyirik. Təbii, hər dövlətin özünün həyata keçirdiyi siyasət var, o özü maraqlarına uyğun siyasət həyata keçirə bilər. Lakin bu, erməni məsələsində bu cür olmalı deyil. Bu dövlət islam ölkəsidirsə, birmənalı olaraq, islam həmrəyliyi nümayiş etdirməlidir".

Ə.Orucov hesab edir ki, işğalçı dövlətin bayrağına bu cür münasibət, əslində, beynəlxalq hüquq normalarına da zidd sayılmalıdır. Onun sözlərinə görə, hər bir dövlət beynəlxalq hüquq normalarına riayət etməlidir. "Birləşmiş Ərəb Əmirliklərinin bu addımı atması çox böyük təəssüf doğurur. Halbuki, bu dövlətin Azərbaycanla çox yaxşı münasibətləri var. Gərək belə bir addım atılmayaydı. Bu məsələnin siyasi tərəfindən çox, mənəvi tərəfi nəzərə alınmalı idi" - deyə Ə.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

# Paşinyanın Krasnodar psixiatriya xəstəxanasında müalicə olunduğuna dair sənəd meydana çıxıb

**2018-ci ildə "məxməri inqilab" yolu ilə hakimiyyətə gələn Nikol Paşinyanın bu günə qədər yürütdüyü siyasətin Ermənistan üçün heç bir perspektiv vəd etmədiyi onun siyasi simasından asılan avantürist yarlığının həqiqət olduğunu göstərir. Çünki Paşinyan Baş nazir seçildikdən sonra ali hakimiyyəti ələ alsa da, ölkəyə demokratiya ab-havası gətirdiyini iddia etsə də, vəziyyət heç də ermənilərin ürəyincə deyil.**

*"Həmin sənədlərin məhz indi mətbuatda yayılmasının özü də maraqlı məqamdır"*

**Əli Orucov:** *"Onun siyasi fəaliyyətində bu elementlər açıq-aşkar özünü göstərir"*

Əvvəla Paşinyan Baş nazir olandan sonra hakimiyyət inzibati basqıların dərəcəsini artırdı. Çoxsaylı həbs həyata keçirildi. İqtisadiyyatla bağlı populist vədlər verdi. Dağlıq Qarabağa qanunsuz səfərlər edib sərsəm fikirlər səsləndirməyə başladı.

Ona görə də istər Azərbaycanda onun siyasətini diqqətlə izləyənlər, istərsə də dünyada, lap elə Ermənistanın özündə ünvanına ən sərt ifadələr işlədənlər onu "dəli" adlandırırlar. Əslində, Paşinyanın apardığı siyasəti sistemləşdirib təhlil edəndə bu elementlər özünü göstərir. Onun verdiyi məsuliyyətsiz bəyanatlar, puç vədlər, demokratiya imitasiyası yaratması ciddi siyasətçi olmadığını və bu sahəyə təsadüfən gəldiyini göstərir.

Bütün bunları onun əqli cəhətdən qüsurlu olması haqqında yayılan tibbi sənəd də təsdiqləyir. Belə ki, Ermənistan mətbuatında Nikol Paşinyanın psixiatriya xəstəxanasında müalicə olunması ilə bağlı sənəd yayılıb. Erməni KİV-i xəbər verir ki, yayılan sənəd 1 noyabr 2001-ci ildə Krasnodar şəhər psixiatriya xəstəxanasından Krasnodar Prokurorluğuna göndərilib. Məsələ ilə bağlı Ermənistan hökuməti tələm-tələsik verdiyi açıqlamada yayılan sənədin saxta olduğunu və Baş nazir Nikol Paşinyanla heç bir əlaqəsi olmadığını desə də, fotofakt bunun əksini deyir.

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, şəxsən o, sözügedən sənədin həqiqi olmasına şübhə etmir: "Ona görə ki, onun siyasi fəaliyyətində bu elementlər açıq-aşkar özünü göstərir. Siyasi çıxışlarına, at-




КРАСНОДАРСКАЯ
ГОРОДСКАЯ ПСИХИАТРИЧЕСКАЯ БОЛЬНИЦА
Диспансерное отделение
г. Краснодар - 18
ул. Камвольная, 12
тел. 31-79-08
ПРОКУРАТУРА г. Краснодар
На № 15-1 от « 05 »
Никол
1975 года рождения
проживающий (ая) по адресу: г.

dığı qeyri-ordinar addımlara baxsaq görərik ki, Paşinyanda normal siyasətçiyə xas olan xüsusiyyətlər yoxdur. Çünki onun bütün sahələrdə aşırı populizmə üstünlük verməsi, düşünülməmiş addımlar atması bu qənaətə gəlməyə əsas verir ki, Paşinyanın psixikası həqiqətən yerində deyil. Qarabağla bağlı onun məlum ifrat və ağlasığmaz fikirlər səsləndirməsi onu deməyə əsas verir ki, bunu deyən doğrudan da "dəli" olmalıdır. Ermənistan tərəfinin sözügedən sənədlərin saxta olması ilə bağlı səsləndirdiyi açıqlama həqiqəti əks etdirmir. Həmin sənədlərin məhz indi mətbuatda yayılmasının özü də maraqlı məqamdır. Nəzərə almaq lazımdır ki, Ermənistan-Rusiya münasibətləri gərgindir. Çox güman ki, belə bir dövrdə bunun ortaya çıxması təsadüfi deyil. Bununla həm də Paşinyana göstərirlər ki, necə keçmişin var".

***Vidadi ORDAHALLI***

# Bir neçə ABŞ konqresmeni Fransanın erməni toruna düşmüş bir-iki parlament üzvündən "nümunə götürdü"...

**ABŞ Konqresinin Nümayəndələr Palatasının ermənilərə qulluq edən üç üzvü: Ceki Spir-Kançelyan, Cudi Çu və Frenk Pallone Ermənistana oktyabrın 1-də nəzərdə tutulmuş birhəftəlik səfərləri çərçivəsində, o cümlədən, işğal altındakı Dağlıq Qarabağa baş çəkməyə hazırlaşırlar.**

*"Bu cür qanunsuz səfərlər ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirə bilər"*

Erməni mətbuatı xəbər verir ki, bunu ABŞ Konqresində baş tutmuş Amerika Erməni Qurultayının tədbiri çərçivəsində Pasadenanı təmsil edən Cudi Çu bildirib. O bildirib ki, Qarabağda vəziyyətin necə olmasına əmin olmaq üçün böyük maraqla oraya səfər etməyi planlaşdırır. Konqresmen Çunun təşəbbüsü ilə ABŞ Nümayəndələr Palatasının böyük əksəriyyəti tərəfindən təxminən bir ay əvvəl qəbul olunan atəşkəs rejimini "möhkəmləndirən" Roys-Enqel təklifinin həyata keçirilməsi 4 milyon dollar ayrılmasını nəzərdə tutur. Bu məbləğlə cəbhə xəttində xüsusi cihazlar quraşdırılacaq.

Cudi Çu, eyni zamanda, qondarma qurumun 6 milyon ABŞ dolları yardımı ilə təmin olunmasına cəhd göstərəcəyini bildirib.

Qeyd edək ki, bu günlərdə Fransa parlamentinin bir neçə üzvü qanunsuz olaraq işğal altında olan Qarabağa səfər edib və separatçı qurumun təmsilçiləri ilə görüşlər keçirib. İndi də bəzi ABŞ konqresmenləri bənzər yanlış addım atmağa hazırlaşırlar. Bu cür qanunsuz səfərlər dövlətlərarası münasibətlərə mənfi təsir edir. Sözügedən səfəri təşkil edənlərin erməni lobbisi ilə sıx əməkdaşlıq edən şəxslər olduğu məlumdur. İndi də sözügedən qanunsuz səfərə hazırlaşırlar. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər və bunun qarşısını necə almaq olar?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, bəzi ABŞ konqresmenləri erməni lobbisindən bəsləndiyi üçün açıq formada beynəlxalq hüququ pozurlar: "Bütün hallarda, belə səfərlər qanunsuzdur. Bununla yanaşı, belə səfərlər ölkələrin qarşılıqlı münasibətlərinə, öhdəliklərinə xələl gətirir. Fransa parlament üzvlərindən sonra indi də ABŞ Konqresinin bəzi üzvləri belə bir qanunsuz addımın atılmasına hazırlaşırlar. Fransa parlamentarilərinin məlum qanunsuz səfərindən sonra Azərbaycan rəsmi olaraq bu ölkəyə etiraz notası göndərdi. İstənilən halda, belə səfərlər qəbuledilməzdir. Çünki bu, ölkələrin ərazi bütövlüyü prinsipinə hörmətsizlikdir. Beynəlxalq hüquq normaları ilə bağlı qəbul olunan bir neçə konvensiya var. Konqresmenlərin borcudur ki, həmin beynəlxalq sənədlərə hörmətlə yanaşsınlar. Xüsusən də ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır. Birmənalı şəkildə Azərbaycan dövlətinin razılığı, icazəsi olmadan, işğal edilmiş ərazilərə səfər etmək qanunazidd bir əməldir. Bu cür qanunsuz səfərlər ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirə bilər. Ona görə də bəzi konqresmenlər bu barədə bir daha düşünməli və bu addımı atmaqdan çəkinməlidirlər".

***Vüqar Rəhimzadə:*** *"Bəzi ABŞ konqresmenləri erməni lobbisindən bəsləndiyi üçün açıq formada beynəlxalq hüququ pozurlar"*



***Vidadi ORDAHALLI***

# KTMT baş katibi Zasın Bakı səfərindən sonra erməni mediasının qaralama kampaniyası qızışıb

**Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas Azərbaycana səfər edib. Onun ölkənin ali rəhbərliyi ilə görüşü olub. Qeyd edək ki, 2020-ci ilin yanvar ayından Zas həm də yeni vəzifəsinə başlayacaq. Həmin tarixdən quruma sədrlik etmək Belarusa keçdiyi üçün, KTMT-nin baş katibi Zas olacaq.**



***Daşdəmir Əliyev:*** *"Bu üsulla KTMT-nin nüfuzunu aşağı salıb, acıqlarını çıxmaq istəyirlər"*

Maraqlıdır ki, Zasın Bakı səfərindən sonra erməni mediası bütün arsenalı ilə ona qarşı qara piar kampaniyasına start verib. Qeyd edilir ki, Zas Azərbaycanın qurumda lobbiçiliyini həyata keçirəcək. Bunun əlamətləri kimi ermənilər Zasın vaxtilə Bakıda təhsil almasını, Lukaşenko ilə İlham Əliyev arasındakı münasibətlərin çox yüksək səviyyədə olmasını göstərirlər. Həmçinin, bildirirlər ki, guya Bakının KTMT-yə üzv olmasının qarşısını Ermənistan aldığı üçün, Azərbaycan Zas kartından maksimum dərəcədə öz xeyrinə istifadə edəcək. Hətta onu Azərbaycanın qurumdakı "səlahiyyətli səfiri" kimi də təqdim edirlər.

Erməni KİV-i etiraf edir ki, Azərbaycan bəzi qurumlara üzv olmadan da ora təsir rıçaqlarını qura bilir. Bu baxımdan da maraqlıdır, Zasın onlar tərəfindən hədəfə alınması nə ilə bağlıdır?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın KTMT xəstəliyinin kökündə özlərinin aldıqları zərbələr durur: "Bilirsiniz ki, Paşinyan hakimiyyətə gələndən sonra öz ölkəsindən həmin quruma təhkim edilmiş generalı həbs etdirdi. Həmin vaxt KTMT ölkələrindən ona ciddi təpkilər edildi. Hətta məlum oldu ki, Azərbaycan quruma üzv olmasa da, orada təmsil olunan ölkələrlə münasibəti Ermənistanın onlarla qurulan münasibətindən qat-qat yuxarı səviyyədədir. Azərbaycanın bu nüfuzu erməniləri ciddi narahat edir. Yalnız Zasla bağlı olan məsələ deyil. Onlar KTMT-dən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışdılar, amma alınmadı. Sonra Azərbaycanda rəsmi olmayan səviyyədə səslənən bir fikirdən narahat olub, hətta qurumun nizamnaməsinə dəyişikliklər də təklif etdilər. Halbuki, Azərbaycan KTMT-yə üzv olmaqla bağlı rəsmi hansısa müraciəti etməyib. Ermənistanın irəli sürdüyü təklif KTMT-nin baş katibinin vəzifə səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi prosedurlarının tənzimlənməsindən ibarət olub. Ermənistanın təklifinə görə seçildiyi 3 il müddətinin başa çatmasınadək səlahiyyət müddətinə vaxtından əvvəl xitam verilən şəxsin təmsil etdiyi ölkənin nümayəndəsi seçilməlidir. Hazırda 2020-ci ilədək baş katib səlahiyyətinin müvəqqəti icraçısı Rusiyanın nümayəndəsi Valeri Semerikovdur. Daha sonra bu vəzifə Belarusa təhvil veriləcək. Ermənistan, faktiki olaraq, KTMT-yə rəhbərlik etmək imkanından məhrum edildi. Onun yerini rotasiya qaydasına uyğun olaraq Rusiya tutdu. Bilirlər ki, KTMT Azərbaycana hər hansı formada təzyiq göstərən deyil.

Sadəcə, bu üsulla KTMT-nin nüfuzunu aşağı salıb, acıqlarını çıxmaq istəyirlər. Zasla bağlı bəzi uydurmaların həqiqətə yaxın ola biləcəyi təsəvvürünü formalaşdırmaq asan olduğundan, belə addım atırlar. Bakıda təhsil alması isə onların əlində ciddi "fakta" çevrilib. Bütün bunlar bir daha sübut edir ki, Ermənistanın həm də dövlət kimi siyasi etikası yoxdur. Özünün də üzv olduğu bir qurumu qaralamaqdan belə zövq alır".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın populist Qarabağ bəyanatlarının pozucu rolu barədə daxili və xarici rəylər intensivləşir

**Ermənistanda mövcud hakimiyyətin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqdan uzaq və populist xarakterli mövqeyinin bu ölkənin özünə nə dərəcədə ziyan vurması artıq beynəlxalq miqyasda da açıq etiraf olunur. Hesab edilir ki, yaranmış vəziyyət Qarabağ məsələsində Ermənistanın onsuz da zəif mövqeyinin daha da pisləşməsinə, həmçinin, işğalçı kimi statusunun möhkəmlənməsinə rəvac verib.**

Bu xüsusda erməni ekspert Ara Papyan qeyd edir ki, Ermənistan diplomatiyasının son dövrlərdə bir-birinin ardınca yol verdiyi səhvlər və reallıqdan uzaq bəyanatlar İrəvanın mövqeyinə mənfi istiqamətdə ciddi təsir edir.

Onun sözlərinə görə, yol verilən diplomatik səhvlər beynəlxalq arenada, eləcə də ölkə daxilində hakimiyyətə qarşı ciddi inamsızlıq formalaşdırır: "Biz insanları hər hansı şəkildə aldatmaqla irəli getmək istəyirik. Belə olmur. Diplomatiyanın fırıldaq olması barədə düşüncə çox köhnə və səhv bir yanaşmadır. Yeni əsrdə fırıldaq keçmir". Erməni politoloq etiraf edib ki, Qarabağ Ermənistanın nəzarəti altındadır və hakimiyyətin səsləndirdiyi "müstəqil Qarabağ" ifadəsi sadəcə yalandan ibarətdir: "Hər kəs bilir ki, Qarabağ Ermənistanın tam nəzarəti altındadır. Bu, beynəlxalq anlayışdır. Buna görə də "müstəqil Qarabağ" ifadəsi yalandır. Beynəlxalq hüquqda isə yalan danışmaq asan deyil. Hətta başqa bir problem də var. Məsələn, biz Kosovonun müstəqilliyini tanımamışıq. Bunu əvvəlcədən şərt kimi təyin etmək istəmədiyimiz üçün deyil, sadəcə olaraq Rusiya istəmədiyi üçün tanımamışıq. Bu reallıqdır". O qeyd edib ki, erməni hakimiyyəti 25-30 il ərzində öz müqəddəratını təyin etmək barədə danışıb və daha 30 il danışa bilər: "Amma əminliklə deyə bilərəm ki, bu, Qarabağ məsələsinin əsasında baş verəcəksə, bu məsələnin həll yolu yoxdur, çünki, məsələn,7 rayonu qaytarsaq və ən yaxşı halda Dağlıq Qarabağ Muxtar Vilayətinə sahib olmaq qərarına gəlsək, o bölgəni qoruya bilməyəcəyik. Azərbaycanın əhatə etdiyi 4,5 min kvadrat kilometr ərazini necə qoruya bilərik? Bunu kimsə dərk edir, yoxsa sadəcə kağız imzalamaq kimi baxır və düşünür ki, hər şey yaxşı olacaq?".

O vurğulayıb ki, ermənistanlı və qarabağlı ermənilər fərqli maraqlara da sahib ola bilərlər: "Yəni etnik problem heç bir şey deyil. Qohumlarımla müharibə etmək istəmirəm. Bunu asanlıqla təşkil edə bilərlər, çünki Qarabağ mütəmadi olaraq Ermənistanın başına vurmaq üçün Rusiyanın əlində çox rahat bir alətə çevriləcək. Burada başqa bir problem də var. Bəziləri indi Qarabağın müstəqil olduğunu düşünürsə, məncə belə deyil. Əgər müstəqildirsə, belə olan halda müstəqil ölkənin vətəndaşları Ermənistan pasportunu hansı əsaslarla alırlar?

Eyni şey orduya da aiddir. Qarabağ Ermənistan deyilsə, çağırışçını Şengavitdən, Çarbaxdan çağıraraq Xocavəndə və ya Ağdərəyə xidmət etmək üçün nəyə əsaslanaraq göndəririk? Ya qoşunlarımızı xarici bir ölkəyə apardığınız ikitərəfli dövlətlərarası razılaşma olmalıdır, ya da onu ölkəniz kimi tanımalı və oraya qoşun göndərməlisiniz. Avtomobil nömrələri, universitet təqaüdləri, xəstəxana qiymətləri və sair kimi bu cür nümunələr çoxdur. Məhkəmənin, cavabdeh tərəf olaraq Qarabağ rejiminin deyil, Ermənistanın olduğuna dair qərar verdiyi Kəlbəcər ərazisi ilə bağlı "Çıraqovlar Ermənistana qarşı" iddiasına istinad edə bilərəm, çünki məhkəmə aydın şəkildə qərar verdi ki, cavabdeh Ermənistan Respublikasıdır, ona görə ki, onun bütün ərazisi tam nəzarət altındadır. Yəni bununla bağlı hətta məhkəmə qərarları da var. Biz isə insanları hər hansı şəkildə aldatmaqla irəli getmək istəyirik. Belə olmur". Bu açıqlamalardan kifayət qədər aydın görünür ki, artıq ermənilər özləri işğalçı olduqlarını etiraf edirlər. Bu mənada, baş nazir Nikol Paşinyanın zəbt edilmiş Azərbaycan ərazilərində yaradılan separatçı rejimin müstəqillyinin dəm vurması Ermənistanda belə istehza ilə qarşılanır. Görünən budur ki, erməni tərəfində işğalı etiraf edənlərin sayı artır. Bu isə eyni zamanda Azərbaycan diplomatiyasının mühüm uğuru sayıla bilər. Özü də bütün bunlar o vaxt baş verir ki, Ermənistan hakimiyyəti həm daxildən, həm də xaricdən ciddi təzyiqlərlə üzləşir. Rus politoloq Vitali Arkov qeyd edir ki, hazırda hər şey Bakının ssenarisi ilə gedir: "Bakı Ermənistanın işğalçı mövqeyini tam faş edib. Baş nazir Nikol Paşinyanın ziddiyyətli açıqlamaları da Ermənistanın işğalçı olduğunu təsdiq edib. Azərbaycan bu fonda beynəlxalq ictimaiyyətdən qəti hərəkət gözləyir. Əks təqdirdə Azərbaycan güc yolu ilə ərazi bütövlüyünü bərpa etməli olacaq və bunun üçün müvafiq şərait də var. Xüsusən də Ermənistanın Rusiya ilə münasibətlərini pisləşdirməsi Bakının əlinə oynayır".

Rusiyalı ekspert, Beynəlxalq Avrasiya hərəkatının lideri Aleksandr Duqin də bildirir ki, Moskva ilə münasibətləri korlayan İrəvan özünü çətin vəziyyətə salıb: "Faktdır ki, Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra əvvəlki illərdə qurulan Rusiya-Ermənistan münasibətləri modeli ermənilər tərəfindən şübhə altına alındı. Paşinyan bu münasibətlərin əsas təməllərini yenidən nəzərdən keçirmə prosesinə start verdi. Təbii ki, bu, Moskvanın xoşuna gəlmədi və gəlmir.

Razılaşma uzunmüddətli və dövlətlər arasında idi. Razılaşma Ermənistana rəhbərlik edən hansısa şəxsi ehtiva etmirdi. Rusiya bu məsələdə, məntiqə uyğun olaraq, siyasi, diplomatik, iqtisadi və hərbi sahədə əməkdaşlıq edirdi. Bu əməkdaşlıq reallaşdı. Ermənistan Avrasiya İqtisadi Birliyinə, KTMT-yə üzv olaraq bir sıra inteqrasiya təşəbbüslərini dəstəklədi. Ermənistanın keçmiş rəhbərlikləri ilə yaranan anlaşılmazlıqlara baxmayaraq, erməni tərəfi bu paradiqmaya dəyişiklik etmədi. Paşinyan isə hər şeyi dəyişmək istədi və bu, təsirsiz ötüşmədi. Məsələn, o belə bir hərəkət etdi: KTMT-nin rəhbərini həbs edək, yoxlayaq, görək KTMT nədir. Avrasiya İqtisadi Birliyi - baxaq, görək Ermənistan üçün nə dərəcədə faydalıdır. Rusiyanın Ermənistanda hərbi kontingenti hələlik sual altına alınmayıb. Amma burada bir sual meydana çıxır: Ermənistanda hərbi baza hansı əsasa görə inşa edilib? Bizə nə qədər ödəyirsiniz? İqtisadi model - gəlin, əvvəllər imzalanmış müqavilələrə yenidən baxaq. Qarabağ məsələsinə görə razılaşma? Bunu bizimlə müzakirə etməyiblər. Bax, məhz bu yolla Paşinyan bütün sistemi və razılaşmaları şübhə altına saldı. Ermənistanın yeni rəhbərliyi deyir ki, Rusiya müttəfiqdir, amma gəlin, mövqelərə yenidən nəzər salaq. Təbii ki, Moskva bundan narazıdır. İrəvanın hələlik düşmənçilik mövqeyi açıq-aşkar deyil. Amma bu, Rusiyanı şübhələndirir".

Ekspert hesab edir ki, vaxtilə Avropa İqtisadi Birliyindən çıxmağa və Rusiya ilə münasibətləri yenidən nəzərdən keçirməyə çağırışlar edən Paşinyan planlarından əl çəkməyib: "Düşünürəm ki, belədir. Bu isə Rusiya tərəfindən xoş qarşılanmır. Bu kifayət qədər uzun müddət davam edir. Paşinyan vəziyyəti qəlizləşdirir. Bu əslində təhlükəli oyundur. Yeni mərhələdə prezident Vladimir Putinin siyasi kursu dəyişməsə, çətin anda dostlarını və partnyorlarını satanları cəza gözləyir. Bundan Ermənistan ciddi şəkildə uduzacaq. Azərbaycan isə burada ağıllı gedişlər edir. Ümumiyyətlə, Azərbaycan və Rusiya arasındakı münasibətlərə gəldikdə, düşünürəm ki, daha da yaxınlaşma və strateji partnyorluq müşahidə ediləcək ki, bunun memarı da İlham Əliyev və Putindir. Təbii ki, indi maraq doğuran məqam baş verənlərin Qarabağ münaqişəsinə də təsiri ilə bağlıdır. Hər halda, təsirsiz ötüşməyəcək".

Digər rus politoloq Modest Kolerov da eyni mövqeni sərgiləyir. O hesab edir ki, Putinin qəzəbini qazanmış Ermənistanın Qarabağ kartı üzərindən cəzalandırılması tamamilə mümkün haldır: "Putin Ermənistan hakimiyyətindən çox narazıdır. Hətta hazırkı vəziyyətdə Putinin əvəzinə Rusiyanın baş naziri Dmitri Medvedyevin Ermənistana Avrasiya İqtisadi Birylinin iclasına qatılmaq üçün İrəvana gəlməsi ehtimalı kifayət qədər böyükdür". Onun sözlərinə görə, Putinin belə bir şeyi etmək üçün bir sıra səbəbləri var:

"Əsas yanlış addım Robert Köçəryanla bağlı Konstitusiya Məhkəməsinin qərar qəbul etməməsi və görməzdən gəlməsi idi. Digər addım Ermənistan tərəfinin Qərbə meyllənməsidir. Bunlar Rusiyada xoş qarşılanmır. Ona görə də Ermənistanı siyasi, iqtisadi cəzalar gözləyir. Siyasi müstəvidə, məsələn, Qarabağ məsələsində Ermənistan Rusiyanı Azərbaycanın yanında görə bilər. Qazın qiymətinin artırılması isə iqtisadi təzyiq mexanizmələrindən sadəcə biridir".

Digər rus siyasi təhlilçi İqor Korotçenko da Qarabağ məsələsində Ermənistanın mövqelərinin daha zəif duruma düşdüyünü qeyd edir: "Paşinyanın son aylar verdiyi bəyanatlar, yumşaq şəkildə desək, Rusiyaya qarşı dost münasibətini əks etdirmir. Siyasi səviyyədə heç kim - nə Putin, nə də Medvedyev Ermənistanı ictimai şəkildə tənqid etmək üçün ona göstəriş verib. Biz Paşinyanın öz müsahibəsində anti-Rusiya xarakterli şərhlər etdiyini müstəqil şəkildə görürük. Burada gizli anti-rus alt kontekst var". Korotçenkonun sözlərinə görə, Paşinyanın fəaliyyəti artıq erməni xalqında da narazılıq yaradır: "Buna görə də erməni xalqı onun fəaliyyətlərini qiymətləndirəcək və siyasi taleyinə qərar verəcək, çünki xalq Paşinyanın hakimiyyətə gəlməyindən əvvəlki vəziyyətlə sonrakı vəziyyət arasında nəticə görmür, yeni rəhbər istəyir. Xalq onun Qarabağ məsələsində atdığı addımlardan da narazıdır. Çünki bu hal Ermənistanı Azərbaycanla savaşa sürükləyir. Bu savaşda isə Ermənistanın qalib olmaq şansı yoxdur və bunu ermənilər özləri də yaxşı bilir". Bütün bunlar Azərbaycanın düşmən üzərində Qarabağ məsələsində üstünlüyünün daha da artmasının real göstəriciləri sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Komandası tam şəkildə dağılmaq üzrə olan Ermənistanın baş naziri Nikol Paşinyanı qarşıdakı dövrdə daha böyük problemlər gözləyir. Çünki Paşinyana artıq bir neçə istiqamətdən təzyiqlər edilir. Əvvəla, cəmiyyətdə artıq onun fəaliyyətindən böyük narazılıq var. Əhali vədlərinin heç birini yerinə yetirə bilməyən Paşinyandan ciddi şəkildə narazıdır və bu fonda onun istefasını istəyənlərin sayı artır.**

# Ermənistanda Paşinyan üçün şok effektli "Qaynar payız"...

İkinci bir tərəfdən, yaranmış vəziyyətdən istifadə etməyə çalışan "Qarabağ klanı" da xeyli aktivləşib. Onlar da Paşinyanı daha çox sıxışdırmağa başlayıb. Paşinyan üçün üçüncü böyük təhlükə isə onun komandasından ayrılan və ayrılmağa hazırlaşanlardır. Onlar da Paşinyana qarşı vahid mərkəzdə birləşməyə hazırlaşır. Həm onlara, həm də "Qarabağ klanı"na Rusiyadan edilən yardımlar isə Paşinyanın durumunu daha da ağırlaşdırır. Məhz belə vəziyyətdə Paşinyan hökumətindəki istefalar daxili siyasi gərginliyin daha da artmasına rəvac verir. Politoloq Armen Badalyan isə bildirir ki, istefaya gönərilən Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı Artur Vanetsyan Paşinyana qarşı yeni siyasi hərəkat yaradacaq. Politoloq vurğulayıb ki, Vanetsyan xalq arasında nüfuzu getdikcə azalan Paşinyan hökumətinə yaxşı alternativ ola bilər. Onun sözlərinə görə, Paşinyana qarşı yeni siyasi güc mərkəzi məhz Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları hesabına formalaşa bilər. Badalyan hesab edir ki, Vanetsyanın qarşısında dura biləcək heç bir siyasi güc olmayacaq.

Badalyan əlavə edib ki, MTX-nin sabiq sədri reytinqinə görə Paşinyandan geri qalmır, onun kifayət qədər imkanları və xarici dəstəyi var. Politoloqun sözlərinə görə, Rusiyanın timsalında Vanetsyanın ciddi dəstəyi var: "MTX sədrinin öz istefası ilə bağlı açıqlamasında "biri sanki mənə "dayan" deyir!" sözləri də maraqlı məqamlardan xəbər verir. Ermənistan baş nazirinin MTX sədrindən sonra ölkənin polis rəisi Valeri Osipyanı da istefaya göndərməsi iqtidar daxilində ciddi ziddiyyətlərin daha bir göstəricisidir". Bu durumda Rusiyanın "Nezavisimaya gazeta" mətbu orqanı yazır ki, Paşinyan üçün daha bir şok effekti "qaynar payız" olacaq: "Artıq Ermənistanda yerli politoloqların bəyan etdikləri "qaynar payız" sürət götürür. Hadisələr uşaq kaleydoskopundakı naxışlar kimi bir-birini əvəz edir. Və yeni hökumətin ictimaiyyətə arabir yaxşı xəbərlər atdığına baxmayaraq, çoxlarında bu hiss keçmir ki, bütün bunlar azdır. Xüsusən də Milli Təhlükəsizlik Xidmətinin başçısı Artur Vanetsyanın və polis rəisi Valeri Osipyanın gözlənilməz istefaları fonunda. Doğrudan da görməmək olmaz ki, nazirlər kabineti üzvlərinin çoxunu gənclər, təcrübəsiz adamlar təşkil etsə də və tez-tez sadəcə öz vəzifələrinin öhdəsindən gələ bilməsələr də, Nikol Paşinyan hökuməti səy göstərir. Baş nazir bu günlərdə jurnalistlərin diqqətini, onun fikrincə, hökumətin aktivinə yazıla biləsi yüz addıma yönəltdiyi böyük mətbuat konfransı keçirib. Amma reallıqda vəziyyət tam fərqlidir və Paşinyan daha çox keçmiş hakimiyyətə qarşı amansız təqibləri ilə daha çox diqqət cəlb edib. İstintaq qurumları Ermənistanın keçmiş prezidenti və baş naziri Serj Sarksyanın, keçmiş baş nazir Ovuk Abramyanın, keçmiş nazirlərin, idarə rəislərinin, qubernatorların qohumlarına çatıb. Dövlət Gəlirlər Komitəsinin keçmiş sədri və keçmiş maliyyə naziri Qaqik Xaçatryan həbs olunub, Serj Sarksyanın doğma qardaşı isə axtarışa verilib. Respublikanın ikinci prezidenti Robert Köçəryan və general Manvel Qriqoryan müttəhimlər kürsüsündədir. Bununla yanaşı, ölkə vətəndaşlarının böyük çoxluğu bu adamların hamısına tezliklə cəza kəsilsin deyə məhkəmə islahatlarını sürətləndirməyi tələb etməklə keçmiş korrupsiyaçılarla mübarizənin tempindən narazıdır. Ermənistanda islahatların tempindən narazılıq artır - elan edilmiş iqtisadi inqilab yerində sayır. Ölkə iqtisadiyyata önəmli yatırımı, iş yerlərinin kəskin artacağını və adamların yaşayışının keyfiyyətcə yaxşılaşacağını hələ də səbrsizliklə gözləyir. Hökumət öz növbəsində bildirir ki, yatırımlar artıq var və yaxın gələcəkdə bunu görməmək olmaz. Hər necə olur-olsun, iqtisadiyyatda önəmli uğurlar əvvəlkitək müşahidə olunmur.

Hakimiyyətin bal çələyində zəhər payı ciddiləşir. Artıq indi hakimiyyətin - həm də Paşinyan öz reytinqini tutmağa nail olunca - ən qısa müddətə həll etməli olacağı ictimai qarşıdurma qeydə alınır. Bəli, reytinqi laxlayıb, amma dağılmayıb. Söhbət, hər şeydən qabaq, açılışına hökumətin etiraz etmədiyi, amma ictimaiyyətin ciddi təşviş keçirdiyi "Amulsar" qızıl yatağından gedir. Lakin burada da müxtəlif rəylər var - mədənin açılışının mühümlüyündən (bəs iş yerləri, dövlət büdcəsinə on milyonlarla dollar mədaxili və başqaları necə olsun) mineral bulaqları ilə kurort Cermukun və Göyçə gölünün bütün ekosistemi üçün ölümcül təhlükəyə qədər. Cermukluların özləri mədənə bütün girişləri bağlayıb, İrəvanda etiraz aksiyaları isə kəsilmir. "Amulsar"a görə yekun qərar hansı olacaq, o qədər də aydın deyil, amma ekoloji hərəkat Paşinyanın reytinqini ciddi laxlada bilər.



Analitiklərin çoxunun fikrincə, "1 mart işi", daha doğrusu, ölkənin 2008-ci il martın başlanğıcında konstitusiya quruluşunu devirməkdə ittiham edilən ikinci prezidenti Robert Köçəryanın və başqalarının - generallar Yuri Xaçaturov və Seyran Ohanyanın, habelə baş nazirin keçmiş müavini Armen Gevorkyanın məhkəməsi uzanır. O zaman hüquq-mühafizə gücləri və prezident seçkilərinin nəticələrindən narazı yürüşçülər arasında qarışıqlıq və toqquşmalar nəticəsində 10 nəfər həlak olub, 200-dən yuxarı adam yaralanıb. Bundan başqa, Köçəryan xüsusilə böyük miqdarda rüşvət almaqda da ittiham olunur. Müxtəlif mərhələlərin məhkəmələri həbs qətimkan tədbirini - Köçəryanın həbsini artıq üç dəfə dəyişib, amma başqaları onu həmişə həbsxanaya qaytarıb. İndi keçmiş prezidentin vəkil qrupu və Kəçəryanın özü əmindir ki, bu, siyasi təqibdir. Bəli, cəmiyyətdə narazılar kifayət qədərdir, bu həqiqətdir. Elə bu da "qaynar payız" üçün bəs edir. Bu payız isə Paşinyanın sonunu gətirə bilər".

***Nahid SALAYEV***

# Paşinyan Ermənistanda işsizlərin sayını 17, intiharları 20 faiz "artırıb"...

**Paşinyanın küçə inqilabı ermənilərə heç nə vermədi. Əksinə, ölkədə sosial vəziyyət ağırlaşdı, iqtisadi gəlirlər azaldı, iş yerlərində kütləvi ixtisarlar başlandı. Hətta inqilabdan öncəki dövrlə müqayisədə intiharların sayı artdı. Paşinyan erməni xalqına vəd etdiyi inkişafı həyata keçirə bilmir.**

*"Sərmayə gəlmədən iş yerlərinin sayını artırmaq və işsizliyin səviyyəsini aşağı salmaq mümkün deyil"*

***Elman Nəsirov:*** *"Bu onu göstərir ki, Ermənistanda sistemli böhran formalaşıb"*



Mütəmadi olaraq artan etirazlar, açıqlanan statistik rəqəmlər bunu deməyə əsas verir. Ermənistanda verdiyi vədlərini yerinə yetirmək iqtidarında olmayan Nikol Paşinyan çıxış yolunu uzaq dövrə hesablanmış proqramlarda görür. Hansı ki, elan etdiyi "Ermənistan 2050 - Strateji İnkişaf Sənədi" proqramı birmənalı qarşılanmır. Bunun reallığa söykənməyən bir proqram olduğu ortadadır. Açıqlanan bu proqram Paşinyanı gülüş hədəfinə çevirib. Erməni ekspertlər hesab edirlər ki, hakimiyyət xalqın qarnını uydurma vədlərlə doyurmaq istəyir.

Açıqlanan statistik rəqəmlər ötən dövr ərzində vəziyyətin daha da pisləşdiyini göstərir. Belə ki, işsizlik səviyyəsi təkcə 2018-ci ildə 17,71 faiz olub. Bu ilin birinci yarısında da bu sahədə müsbət meyllər özünü göstərməyib. Paşinyanın hakimiyyətə gəlişindən sonra "optimallaşdırma" adı altında real iş yerlərinin ixtisarına başlanıb. İşsizlik həddinin artması ölkədə intiharların sayını 20 faiz artmasına da təsir edib. Rəsmi məlumatlara görə, təkcə bu il ölkədə 82820 nəfər iş axtarıb. Lakin qeyri-rəsmi məlumatlar vəziyyətin daha pis olduğunu göstərir. Əhalinin 50 faizə qədəri ya evsizdir, ya da şərti mənzillərdə yaşayır. Dünya Bankının ötən il açıqladığı reytinqində ümumdaxili məhsula görə Ermənistan 195 dövlət arasında 130-cu yeri tutub.

Görünən odur ki, Paşinyan ölkəyə rəhbərlik etməyə başlayandan sonra Ermənistanda həm işsizlik səviyyəsi yüksəlib, həm də işsizlikdən qaynaqlanan intiharların sayı artıb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Elman Nəsirovun sözlərinə görə, bu onu bir daha göstərir ki, Paşinyan bütün sahələrdə səriştəsizdir: "Ermənistanda bu kimi neqativ proseslər gözlənilən idi. Çünki Ermənistanda ona görə inqilab baş verdi ki, ölkədə despotik bir rejim hakimiyyətdə idi. İlk növbədə erməni xalqı özü bu rejimdən əziyyət çəkirdi. Paşinyan bu reallıqlar fonunda inqilaba nail oldu və hakimiyyətə gəldi. Ermənistanın üzləşdiyi problemlərin yeganə fundamental həll yolu işğal olunmuş Azərbaycan torpaqlarını geri qaytarmaq idi. Ondan sonra iqtisadi əlaqələrin bərpa edilməsi idi. Ancaq Paşinyan hakimiyyətə gələndən sonra başı dumanlandı. Eyforiyaya qapıldı. O, Ermənistanın üzləşdiyi problemlərin fundamental səbəblərini görməzdən gəldi. Ona görə də bu gün Ermənistanda hərtərəfli və sistemli böhran formalaşıb. Böhran həm sosial, həm də iqtisadi sferanı əhatə edir. Demoqrafik sahədə böhran daha da dərinləşib. Eyni zamanda, siyasi böhranın bütün elementləri göz qabağındadır. Ölkədə işsizlik və bununla əlaqədar intiharlar artır. Bu ona görə baş verir ki, Paşinyan investisiyanın cəlb edilməsində heç bir uğura imza ata bilməyib. İş o yerə gəlib çatıb ki, xarici ölkələrdəki diplomatik rəhbərlərlə görüşündə Paşinyan açıq şəkildə səfirləri tənqid edib. Deyib ki, niyə Ermənistan iqtisadiyyatına sərmayə cəlb edə bilmirsiniz. Bir növ, bununla Ermənistanın xarici ölkələrdəki səfirlərini açıq formada ittiham etdi. Bu həm də Baş nazir səviyyəsində etiraf idi ki, Ermənistan iqtisadiyyatına heç bir ölkə investisiya qoymaq istəmir. Deməli, bu ölkənin gələcəyinə inanmır. Bu ölkənin perspektivinə şübhə ilə yanaşır. Sərmayə gəlmədən iş yerlərinin sayını artırmaq və işsizliyin səviyyəsini aşağı salmaq mümkün deyil. Ona görə də sosial vəziyyət acınacaqlıdır və əhalinin ölkəni tərk etməsi daha geniş vüsət alıb. Özünə qəsd edən ölkələr içində Ermənistan öncül mövqedədir. Ermənistan mətbuatı yazır ki, əvvəllər ölkəni tərk edənlər iki istiqamətdə bilet alırdılar. İndi isə yalnız bir istiqamətdə bilet alırlar. Yəni ölkəni birdəfəlik tərk edirlər. Bir sözlə, Ermənistanda sistemli böhran formalaşıb".

***Vidadi ORDAHALLI***

# Səudiyyənin neft sənayesini çökdürən Yəmən husiləri bu dəfə Ərəb Əmirliklərini hədələdi - Əbu Dabi və Dubay hədəfdə...

**Ötən şənbə Səudiyyə Ərəbistanının dövlət neft şirkəti "Saudi Aramco"nun obyektlərinə hücum edən husilər Yəməndəki ərəb koalisiyası hücumları davam etdirəcəyi təqdirdə Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) də vurmaqla hədələyib.**



Baki-xeber.com xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının Müdafiə Nazirliyindən "Saudi Aramco"ya hücumun İran tərəfindən dəstəklənməsi barədə verilən açıqlamadan sonra husilərin sözçüsü Yahya Seri deyib.

Seri Səudiyyə Ərəbistanının Bekik və Haris neft obyektlərini aralarında ilk dəfə istifadə edilən aparatların da olduğu çox sayda dronlarla hədəf aldıqlarını bildirib.

Hücumların hədəflərin məsafə və mövqeyinə görə üç istiqamətdən gerçəkləşdirildiyinə işarə edən Seri hücumlarda 1500-1700 km mənzilli Samad-3 və üçüncü nəsil Kasif tipli dronların da istifadə edildiyini deyib.

O, Ərəb koalisiyası hücumları davam etdirəcəyi təqdirdə, Səudiyyə Ərəbistanı və BƏƏ-yə əks hücumları artırmaq və daha çox həyati əhəmiyyətli obyektləri hədəf alacaqları ilə təhdid edib. Seri BƏƏ-nin paytaxtı Əbu Dabi və Dubayın da vurulacaq hədəflər siyahısında yer aldığını deyib.

Xatırladaq ki, sentyabrın 14-də Səudiyyə Ərəbistanının "Saudi Aramco" dövlət şirkətinə məxsus Bekik və Haris neft emalı zavodlarına hücuma görə məsuliyyəti Yəməndəki qiyamçı husilər öz üzərinə götürüb. Hücumdan sonra hər iki zavodda güclü yanğın başlayıb və saatlar sonra söndürülüb.

Neft emalı zavodlarındakı partlayış nəticəsində nəql edilən xam neftin həcmi 5,7 milyon barrel azalıb və bu da şirkətin hasilatının 50 faizinə bərabərdir. Bu itki anbarlardakı ehtiyatlar hesabına kompensasiya edilir. Eyni zamanda neft emalı zavodlarındakı yanğın qaz hasilatını da sutkada 2 milyard kub fut həcmində azaldıb. Bu həcmdə qaz 700 min barel sıxılmış maye qazın istehsalında istifadə edilir. Bununla da ölkənin etan və sıxılmış maye qaz ehtiyatları yarıbayarı azalıb.

**Cari il ərzində dünya neft bazarında baş verənlər bu məhsulun qiymətinin spekulyativ proseslərə kifayət qədər həssas olduğunu bir daha nümayiş etdirdi. Qeyd olunan fonda neftin qiymətini büdcədə yüksək həddə götürənlər, o cümlədən ərəb ölkələri, Venesuela, İran və digərləri "qara qızıl"ın qiymət dəyişməsindən ciddi əziyyət çəkdi.**

# Dünya reallıqları Azərbaycanın neft-büdcə qiymət siyasətini yenidən müzakirəyə qaytarır...

Azərbaycan kimi ehtiyatlı siyasət yürüdənlər üçün isə hansısa ciddi problem qeydə alınmadı.

Xatırladaq ki, cari il üçün ölkəmizdə büdcədə neftin qiyməti 60 dollardan götürülüb. İlin ötən dövrü ərzində isə Azərbaycan neftinin satış qiyməti orta hesabla 65 dollardan yuxarı olub. Bu mənada, neft qiymətləri ilə bağlı proseslər ölkəmizə hansısa ciddi təsir göstərməyib. Bazarda baş verənləri nəzərə alan hökumət gələn il üçün neftlə bağlı daha ehtiyatlı siyasət yürütməyə qərar verib. Bu barədə danışmazdan öncə qeyd edək ki, bu ilin qalan dövrü ərzində də neft qiymətlərinin Azərbaycanın müəyyən etdiyi 60 dollarlıq həddən yuxarı olması proqnozlaşdırılır. Bunun ümdə səbəbləri İran, Venesuela, Liviya, İraq kimi hasilatçı ölkələrin bazara getdikcə daha az neft çıxarmasıdır. Eləcə də ən böyük hasilatçılardan olan Səudiyyə Ərəbistanının husilərlə dərinləşən problemi də prosesə getdikcə ciddi təsir edir.

Xatırladaq ki, sentyabrın 14-də Səudiyyə Ərəbistanının Əbqaik və Xurays bölgələrində "Saudi Aramco" dövlət şirkətinə məxsus neft emalı zavodlarına hücuma görə məsuliyyəti Yəməndəki qiyamçı husilərin "Ənsar Allah" hərəkatı öz üzərinə götürüb. Hücum 10 pilotsuz təyyarə ilə həyata keçirilib. Hücumdan sonra hər iki zavodda güclü yanğın başlayıb. Neft emalı zavodlarındakı partlayış nəticəsində nəql edilən xam neftin həcmi 5,7 milyon barrel azalıb və bu da şirkətin hasilatının 50 faizinə bərabərdir. Məhz bu olaydan sonra neftin qiyməti 19 faizə qədər bahalaşdı. Azərbaycan neftinin qiyməti hətta 70 dollara çatdı. Husilər isə analoji hücumun davam etməsini istisna etmir. Bundan başqa, Səudiyyə Ərəbistanından sonra husilər bu dəfə Birləşmiş Ərəb Əmirliklərini təhdid ediblər. Belə ki, husilər, Yəməndə Ərəb koalisiyasının hücumları davam edəcəyi təqdirdə, BƏƏ-ni vuracaqlarını bəyan ediblər. Bu halda neft qiymətlərinin fantastik həddə bahalaşması gözlənilir. Bu isə neft bazarının belə hadisələrə kifayət qədər həssas olduğunu göstərir. Bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov da təsdiq edir: "Son zamanlar beynəlxalq neft bazarında neftin qiyməti çox həssas olub. Gördüyünüz kimi, dünya miqyasında baş verən çox müxtəlif hadisələr, bir çox hallarda isə neft sənayesinə aidiyyəti olmayan məsələlər neftin qiymətinə bu və ya digər şəkildə təsir göstərməkdədir. Bu cür hadisələr nəticəsində neftin qiymətinin qalxması və qısa müddət ərzində enməsi, yaxud qiymətin qısa müddətdə enib yenidən qalxması baş verir". Nazir qeyd edib ki, araşdırmalara görə, Səudiyyə Ərəbistanında baş verən hadisələr nəticəsində gündəlik hasilatın 5,7 milyon barrel azalması neft sənayesinin tarixində ən böyük azalmadır.




Beləliklə, bu qəbildən olan hadisələr neft qiyməti ilə bağlı artıq ehtiyatlı siyasət yürüdülməsini tələb edir. Bu mənada, ölkəmizdə gələn il üçün neft qiymətlərinin 55 dollardan götürülməsi təbii sayıla bilər. Maliyyə Nazirliyinin Azərbaycanın 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında bu xüsusda bildirilir: "2020-ci il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən neftin bir barrelinin qiyməti 55 ABŞ dolların bərabər götürülüb. Bütövlükdə, orta müddətli dövr üçün də icmal və dövlət büdcəsinin layihələri hazırlanarkən həmin qiymətin əsas götürülməsi planlaşdırılır". Bir daha qeyd edək ki, 2019-cu il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən neftin bir barrelinin qiyməti 60 dollar götürülüb. Beləliklə, büdcə üçün qiymət 5 dollar aşağı salınıb. İqtisadçı-ekspert Vüqar Bayramov bu xüsusda qeyd edir: "Gələn ilin dövlət büdcəsində neftin 1 barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Bu, 2019-cu illə müqayisədə hər barreldə 5 dollar az olsa da, neft bazarındakı volatilliyi nəzərə alsaq, qiymətin daha aşağı götürülməsi məqsədəuyğun idi. Hətta Səudiyyə Ərəbistanındakı neft quyularına hücumdan sonra neftin qiymətində müşahidə edilən 20%-lik artım da bazarda nikbinlik yaratmır. Belə qiymət artımları texniki səbəblərlə bağlıdır və bazardakı kəskin volatilliyi azaltmır".

Gələn ilin büdcəsində neftin qiymətinin 55 dollar götürülməsi ilə bağlı iqtisadçı-ekspert Rəşad Həsənov isə bildirir ki, bu, proqnozlar əsasında qəbul edilmiş qərardır: "Son 3 ildə Azərbaycan hökuməti neftin qiyməti ilə bağlı nisbətən volatillik və daha ehtiyatlı mövqe ortaya qoymağa çalışır. Xüsusilə son 3 ayda qlobal enerji bazarlarında qiymətlər sabit deyil, kəskin artıb. ABŞ-la Çin arasında ticarət savaşı, ABŞ-da neft hasilatının sürətlə artaraq rekordları tez-tez təzələməsi, gələn il neftə tələbin azalması ehtimalı və digər faktorlar nəzərə alınıb. Son nəticədə hökumət büdcə planlaması zamanı bu məqamları nəzərə alıb". O bildirib ki, bu sadəcə, fiskal hesablamadır və əsas məsələ Dövlət Neft Fondundan transfert məsələsidir: "2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 484 milyon manat, xərcləri isə 25 milyard 617,7 milyon manat məbləğində nəzərdə tutulub. 2020-ci ildə Dövlət Neft Fondundan büdcəyə 11 milyard 767,5 milyon manat vəsaitin transfert edilməsi nəzərdə tutulub. Ümumiyyətlə, bu sektorun büdcədə payının 57 faiz olması gözlənir. İndiki şərtlər daxilində büdcədə neftin qiymətinin 55 dollardan götürülməsi fiskal hesablamaların nisbətən daha adekvat aparılmasına şərait yaradır. Düşünürəm ki, büdcədə neftin qiymətinin 55 dollardan götürülməsi məqbuldur. 2020-ci il üçün isə daha ehtiyatlı olmağa ehtiyac var".

Ümumiyyətlə isə, ekspertlər hesab edir ki, əslində, gələn il üçün neftin qiymətinin yenə 60 dollardan aşağı düşməsi gözlənilmir. Çünki İran ətrafında vəziyyət gərginləşir, Venesuela, İraq, Liviyadakı problemlər həllini tapmır. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı ətrafında baş verənlər də qiymətlərin yüksək olacağını göstərir. Buna rəğmən, Azərbaycan yenə ehtiyatlı siyasət yürüdür və belə vəziyyətdə neft gəlirlərinin, ən azından, proqnozlar səviyyəsində olacağı mütləqdir.

***Tahir TAĞIYEV***

**"Azərbaycanda həm meyitdən, həm də sağlam insandan orqan köçürüləcək". Bu fikirləri mətbuata açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib. Onun sözlərinə görə, "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" yeni qanun layihəsi artıq hazırdır.**

# Azərbaycanda orqan transplantasiyası ilə bağlı bütün problemlər həllini tapır - istiqaməti deputat Əhliman Əmiraslanov göstərdi...



## *Adil Qeybulla: "Bir sıra insanların həyatını bunun sayəsində xilas etmək mümkün olacaq"*

Qanun layihəsi bütün müvafiq qurumlara göndərilib və onlardan müsbət rəy alınıb: "Bu qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə ediləcək. Adətən payız sessiyasında büdcənin müzakirəsini aparırıq. Ancaq çalışacağıq ki, bu sessiyada müzakirəyə çıxaraq".

Ə.Əmiraslanov onu da bildirib ki, belə bir qanun Azərbaycanda əvvəllər də olub: "Ancaq praktik olaraq işləməyib. Öncə o qanun layihəsində dəyişiklik etmək istədik. Ancaq gördük ki, məsələ təkcə dəyişikliklə başa gəlmir. Ona görə də yeni qanun layihəsi hazırladıq. Bu çox vacib məsələdir. Həm meyitdən, həm də sağlam insandan orqan köçürülməsi həyata keçiriləcək. Ümumilikdə, bu qanun layihəsində orqan transplantasiyasında olan bütün problemlər öz əksini tapıb".

Dünyanın bir sıra ölkələrində orqan transplantasiyası barədə qanun var və bundan irəli gələrək müəyyən uğurlar əldə edilib. Həmçinin, bundan geniş istifadə edilir. Ona görə də Azərbaycanda da belə bir qanunu olması vacibdir. Həm də əsas odur ki, sözügedən qanun işlək olsun və bundan cəmiyyət faydalana bilsin.

Məsələyə münasibət bildirən tibb elmləri doktoru, professor Adil Qeybulla belə bir qanunun hazırlanmasına müsbət prizmadan yanaşdı. Onun fikrincə, qanun qəbul ediləndən sonra cəmiyyətdə bu yöndə maarifləndirmə işi aparılmalıdır: "Orqanlar beyin ölümü keçirmiş sağlam şəxslərdən götürülməlidir. Avtomobil qəzası keçirmiş, müxtəlif bədbəxt hadisələr zamanı dünyasını dəyişmiş adamlar bu kateqoriyaya daxildir. Bizdə əhali görürsən bu cür hadisələr zamanı istəmir dünyasını dəyişən şəxsi həkimlər yarsın. Azərbaycan əhalisi emosional olduğundan, bu kimi məsələlərə son dərəcə həssas yanaşır. Ona görə də insanlar buna hazır olmalıdırlar. Onlar düşünməlidirlər ki, dünyasını dəyişən şəxs başqa bir həyata başlanğıc verə bilər. Bu məsələlər Avropada, Türkiyədə və başqa ölkələrdə sivil formada həll olunur. Özü də həmin ölkələrdə bu geniş yayılıb. Təbii ki, bizdə də belə bir qanun olmaqla yanaşı, sözügedən qanun işləsə yaxşı olar. Bir sıra insanların həyatını bunun sayəsində xilas etmək mümkün olacaq. Ona görə də belə bir qanunun qəbul edilməsi ilə yanaşı, cəmiyyətdə orqan transplantasiyası barədə təbliğat işini gücləndirmək lazımdır. İnsanları buna hazırlamaq lazımdır. Hansısa səbəbdən vəfat edən şəxsi onun yaxınları yarmağa qoymurlar. Hansı ki, dünyanın bir çox yerində vəfat edən şəxs yarılır və ölümün səbəbləri dəqiqləşdirilir. Donor bankı olmadan, bu məsələ şəbəkə formasını almadan, yerlərdə səhiyyəni peşəkar səviyyədə qurmadan, bunu həyata keçirmək çətin olacaq. Hesab edirəm ki, zamanla cəmiyyəti buna hazırlamaq mümkün olacaq. Ancaq gərək bu yöndə geniş təbliğat və maarifləndirmə işi aparılsın".

*"Belə bir qanunun qəbul edilməsi ilə yanaşı, cəmiyyətdə orqan transplantasiyası barədə təbliğat işini gücləndirmək lazımdır"*

***Vidadi ORDAHALLI***

**Son zamanlar paytaxtda və bölgələrdə qida zəhərlənmələrinin sayı artıb. Hətta bu zəhərlənmələr kütləvi xarakter daşıyır. Daha çox dönərdən zəhərlənənlərin sayı üstünlük təşkil edir. Son günlər sosial şəbəkədə tez-tez "BİR-İKİ" adlı dönərxanada zəhərlənmələrlə bağlı məlumat yayılır.**

# Dönər zəhərlənmələrinin qarşısını almaq problemə çevrilir



## *Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi: "BİR-İKİ" dönərxanasında baş vermiş hadisə ilə bağlı agentlik əməkdaşları tərəfindən araşdırmalara başlanıb"*

## *Tahir Əmiraslanov: "Ətlərin haradan alınması, müvafiq baytarlıq yoxlamasından keçib-keçməməsi də aydınlaşdırılmalıdır"*

## *Eyyub Hüseynov: "...hətta ölmüş heyvanların ətlərindən alıb..."*

Bunun səbəbi kimi adıçəkilən dönərxanada köhnə ət və tərəvəzlərdən hazırlanan dönərin olması qeyd olunur.

Məlumat üçn bildirək ki, tək "BİR-İKİ" dönərxanasında deyil, yolkənarı dönərxanalarda da zəhərlənmə hadisəsi baş verir. Bir neçə ay öncə məktəb yaxınlığında fəaliyyət göstərən dönərxanadan dönər alan 7 şagird zəhərlənərək xəstəxanaya yerləşdirilmişdi. Bu kimi hadisələr mütəmadi olaraq baş verir.

Maraqlıdır, dönərxanalarda hazırlanan məhsula necə nəzarət olunmalıdır ki, xoşagəlməz hallar qeydə alınmasın?

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, "BİR-İKİ" dönərxanasında baş vermiş hadisə ilə bağlı agentliyin 1003 Çağrı Mərkəzinə daxil olmuş məlumat əsasında adıçəkilən ictimai iaşə müəssisəsində agentlik əməkdaşları tərəfindən araşdırmalara başlanıb: "Hazırda araşdırma davam etdirilir, ictimai iaşə müəssisəsində istifadə olunan qida məhsullarından nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyasına təqdim olunub. Araşdırmanın nəticələrinə uyğun olaraq qanunvericilik çərçivəsində müvafiq tədbirlər görüləcək".

Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov bizimlə söhbətində bildirdi ki, dönərxanalarla bağlı araşdırma aparılmalıdır: "Dönərxanada, birinci növbədə, dönəri bişirən adamların peşəkar aşpaz olub-olmaması yoxlanmalıdır. Aşpazlıq diplomları varmı? 2-ci yoxlanmalıdır ki, həmin dönəri bişirən şəxslər işə müqavilə ilə götürülüblərmi? Həkim müayinəsindən keçiblərmi? Bütün bu sualların cavabı müsbətdirsə, yəqin ki, problem ətdə və ya hazırlanma texnologiyasındadır. Zəhərlənmənin səbəbləri sırasında ətin saxlanması qaydalarına riayət olumamasını da göstərmək olar. Həmin dönərxananın əti haradan aldığı, ətin necə işləndiyi, hansı etaplardan keçdiyi, ora necə gəlib çıxdığı və oradakı hazırlıq prosesinə diqqət edilməlidir. Bundan sonra zəhərlənmənin konkret səbəbindən danışmaq olar".

Həmsöhbətimiz onu da vurğuladı ki, ətlərin haradan alınması, müvafiq baytarlıq yoxlamasından keçib-keçməməsi də aydınlaşdırılmalıdır.

"Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, ayaqüstü yeməklərdən istifadə edəndə diqqətli olmaq lazımdır: "Dönərxanalara tələb var. İnzibati üsullarla dönərxana biznesini çökdürmək olmaz. Tələb olan yerdə təklif də olacaq. Ona görə də qidanın təhlükəsizliyini təmin etmək lazımdır. Məlumdur ki, dönərxanalardakı ciddi problemlərdən biri budur ki, çiy ətin üst tərəfi qızarır, içərisi çiy qalır. Ətin içindəki plazma yavaş-yavaş qızır, qan qaynayır, axır tökülür siniyə. Ət doğranıb tökülür həmin siniyə. Ətlə qanlı maye qarışdırılıb verilir müştəriyə. Heyvan xəstəlikləri nə varsa, heyvana vurulan antibiotiklər, dərmanlar qızdırılmış ətdən süzülüb siniyə tökülür və doğranmış ətlə qarışıq müştəriyə verilir".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycanda dönər hazırlamaq üçün ətləri xüsusi dondurmadan keçirən 2 şirkət fəaliyyətdədir: "Həmin şirkətlərdən biri Xırdalanda, digəri Maştağa qəsəbəsində yerləşir. Ətləri şişə keçirib xüsusi avadanlıqlarda mənfi 40 dərəcədə dondururlar. Buna şok dondurma deyilir. Belə dondurma nəticəsində ətdə olan bütün viruslar məhv olur. Sonradan həmin ətlər xüsusi olaraq qablaşdırılır və dönərxanalara daşınır. Şok dondurmadan keçirilən, dönər hazırlanmaq üçün ətləri əksər dönərxana almaqdan yayınır. Ölkədə fəaliyyət göstərən dönərxanaların heç 1 faizi həmin şirkətlərin hazırladığı ətdən almır. Dönərxanalar ona görə də zəhərlənmə mənbəyi olaraq qalır".

AİB sədri xatırlatdı ki, Azərbaycanda quş ətindən dönər hazırlanması 2006-cı ildən qadağan olunub: "Şəhərə çıxın baxın, toyuq dönəri hər dönərxanada satılır. Belə qadağa bəzi həkimlərin dolanmaq yerindən başqa bir şeyə xidmət etmir. Bunun qarşısını almaq lazımdır. Toyuq dönəri tez çirklənən dönərdir. Lakin toyuq əti şok dondurmadan keçərsə, ondan hazırlanan dönər də təhlükəsiz olacaq. Dönər biznesi ilə məşğul olan əksər sahibkar gedib şok dondurmadan keçmiş ətləri almır, ucuz, murdar, hətta ölmüş heyvanların ətlərindən alıb necə gəldi dönər hazırlayırlar. Ona görə də belə zəhərlənmələr adi hala çevrilib".

***Günel CƏLİLOVA***



# Ölkə banklarına manatla yatırılan depozitlərin məbləğində düşündürücü dinamika var

**Mərkəzi Bankın məlumatına görə, avqustun 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 8 milyard 580 milyon manat təşkil edib.**

Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, əmanətlərin 56,4 faizi xarici, 43,6 faizi isə milli valyutada qoyulub.

Qeyd edək ki, milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 23,4 faiz artıb, xarici valyutada əmanətlər isə 3,6 faiz azalıb.

Maraqlıdır, əhalinin banklardakı əmanətlərinin milli valyutada dinamik artımı nə ilə bağlıdır?

## *Fuad İbrahimli: "Milli valyuta ilə yerləşdirilən əmanətlərin faiz dərəcəsinin yüksək olması əmanətçilər üçün daha cəlbedici görünür"*

İqtisadçı-ekspert Fuad İbrahimli bizimlə söhbətində bildirdi ki, milli valyuta ilə əmanətlərin həcminin artması gözləniləndir: "Məlumdur ki, milli valyutada olub qorunan əmanətlər üçün faiz dərəcəsi 15, xarici valyutada yerləşdirilən depozitlər üçün 3 faiz müəyyən olunub. Bu səbəbdən də manatla yerləşdirilən əmanətlər əmanətçilər üçün daha cəlbedici görünür".

Həmsöhbətimiz onu da vurğuladı ki, manatın mövqeyi devalvasiyadan sonra möhkəmlənməyə doğru gedir. Sırf milli valyutada olan qoyuluşlara həm tarif dərəcələrinin yüksək olması, həm də həmin vəsaitlərin Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunması amili milli valyuta ilə yerləşdirilən əmanətlərin həcminin artmasına təsir göstərib. Xarici valyuta ilə qoyulan vəsaitin isə sığortalanan faiz dərəcəsi aşağıdır. Belədə xarici valyuta qoyuluşuna görə verilən faiz dərəcəsi də azdır. Nəticədə xarici valyuta ilə əmanət qoyuluşu risqləri böyükdür. Ona görə də əhali risqi az olan qoyuluşlara pul qoymağa üstünlük verir. Bu kimi səbəblərdən milli valyuta ilə qoyuluşun həcmi və faizi artıb.

Ekspertin sözlərinə görə, manatın məzənnəsinin sabit qalması milli valyutaya inamın artmasına səbəb olur.

***Günel CƏLİLOVA***

---

# Azərbaycanda valideynlik hüququndan məhrum edilənlərin sayı niyə çoxalır...

**Ötən il 128 nəfər valideynlik hüququndan məhrum edilib, 35 nəfər isə valideynin isə hüquqları məhdudlaşdırılıb. Bu barədə Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur. Qanunvericiliyə əsasən, ailədə valideynlik vəzifəsini layiqincə yerinə yetirməyən şəxslər analıq və ya atalıq hüququndan məhrum olunurlar.**

*"Ailə planlaşdırılmasına önəm verməyən şəxslər gələcəkdə öz valideynlik məsuliyyətlərini dərk etməkdə çətinlik çəkirlər"*

## *Fatimə Hacıbəyli: "Valideyn uşağını döyməklə ailədə avtoritar rejim yaradır"*

Valideynlik hüquqlarından sui-istifadə edənlər qanuni qaydada məsuliyyət daşıyırlar.

Ötən illərlə müqayisədə valideynlik hüququndan məhrum edilənlərin sayının artması barədə fikir bildirən "Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, azyaşlıların hüquqları BMT-nin 1989-cu ildə qəbul olunan "Uşaq hüquqları haqqında beynəlxalq konvensiya"sına uyğun olaraq tənzimlənir: "Uşaqların hüquqlarının tanınması demokratiya məsələsidir. Ancaq Azərbaycanda bu məsələyə münasibət fərqlidir. Valideyn uşağa xüsusi mülkiyyət kimi baxır. Uşaqlar da hüquqlarını bilmirlər".

Ekspert bu məsələdə uşaqların maarifləndirilməsini vacib sayır. Onun sözlərinə görə, bunun üçün televiziyanın, mətbuatın mütəmadi olaraq məsələni qabartması gərəkdir: "Valideyn uşağını döyməklə ailədə avtoritar rejim yaradır. Bunun nəticəsində uşaqlar zəif, qorxaq, öz fikri olmayan, tez təsir altına düşərək böyüyürlər ki, bu da onlarda aqressiyaya gətirib çıxarır. Uşağını döyən valideynin məsuliyyətə cəlb olunması isə məsələyə ən son müdaxilədir. Ümumiyyətlə, valideynlik məsuliyyəti birbaşa şəxslərin bacarıq və təhsili ilə əlaqədardır. Ailə planlaşdırılmasına önəm verməyən şəxslər gələcəkdə öz valideynlik məsuliyyətlərini dərk etməkdə çətinlik çəkirlər. Son illər ölkədə bu sahədə ciddi maarifləndirmə işinin aparılmasına ehtiyac var. Bəzən ən sadə səbəblər üzündən bəzi gənc valideynlər övladlarından imtina etməklə bağlı müraciət edirlər. Azərbaycanda ailədən ayrı düşmək risqi altında olan uşaqların qiymətləndirilməsi və onların alternativ qayğı müəssisələrinə yerləşdirilməsi Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın vəzifə öhdəliklərinə daxildir. Belə ki, komissiya övladına baxa bilməyən ailələrin qiymətləndirilməsini aparmalı və risq faktorları araşdırılmalıdır".



Həmsöhbətimizin sözlərinə görə, bir çox hallarda, yoxsulluq, işsizlik və digər sosial problemlər uşaqların valideyn himayəsindən məhrum olmasına və müəssisəyə yerləşdirilməsinə səbəb olur: "Nəzərə almaq lazımdır ki, Azərbaycanda ailələrin sosial rifahının yaxşılaşdırılmasına istiqamətlənmiş dövlət proqramları və mexanizmləri mövcuddur, indiki halda belə ailələrə ərazi üzrə müvafiq idarələr tərəfindən müdaxilə planına əsasən dəstək göstərilməlidir. Dövlətimizin əsas məqsədi uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması üçün lazımi işlər görməkdir. Bütün hallarda, uşaqların ən yaxşı mənafeyi gözlənilməli və yalnız uşağın hüquqlarının qorunması məqsədilə alternativ qayğıya yönləndirilməsinə razılıq verilməlidir".

F.Hacıbəyli onu da vurğuladı ki, Azərbaycanda qadının analıq hüququndan məhrum edilməsi məsələsi yalnız qanun müstəvisində həll oluna bilər: "Bununla bağlı fikirlərin səsləndirilməsi cəmiyyət tərəfindən düzgün qəbul edilə bilməz. Bizdə bu kimi hallara qarşı cəmiyyətdə bir dözümsüzlük var. İctimai qınaq burada hər zaman böyük rol oynayır. Mən çox arzulayardım ki, bu kimi məsələlər qınaq və tənqidlər nəticəsində öz həllini tapsın. Qadının analıq hüququndan məhrum olunması kimi faciəli bir halı təsəvvür edə bilmirəm. Azərbaycan o cəmiyyətlərdəndir ki, burada qadınların analıq hüququndan məhrum edilməsi ilə bağlı tələb hər kəsin qulağına yad gəlir və heç kim bunu qəbul belə etmək istəmir. Ancaq nəzərə almaq lazımdır ki, biz hüquqi cəmiyyət qururuq. Burada bütün məsələlər qanunla tənzimlənir".

***Günel CƏLİLOVA***

# Gürcüstanda Azərbaycandilli universitetin açılması məsələsi gündəmə gətirilib

**Gürcüstanda yaşayan soydaşlarımızın ana dilində ali təhsil alması sahəsində uzun illərdən bəri mövcud olan problem hələ də öz həllini tapmayıb. Məlum olduğu kimi, Sovet dövründə A.S.Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunun (hazırda İ.Çavçavadze adına Tiflis Dövlət Universiteti) Azərbaycan bölməsi vaxtilə Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllim kadrları yetişdirirdi.**

Lakin bu bölmənin bağlanması nəticəsində soydaşlarımız tamamilə öz ana dillərində ali təhsil almaq hüququndan məhrum ediliblər.

Gürcüstanda yaşayan soydaşlarımız illərdir bu ölkədə Azərbaycandilli ali məktəbin yaradılması uğrunda mübarizə aparırlar, təəssüf ki, hələ də onların bu arzusu reallaşmayıb.

Soydaşlarımız Gürcüstanda Azərbaycandilli universitetin təsis edilməsi üçün artıq imzatoplama kampaniyasına start verib. Eyni zamanda da Gürcüstandakı azərbaycanlı ziyalılar Azərbaycandilli ali məktəbin təsis edilməsinə yardımçı olması üçün Gürcüstanın Baş naziri Giorgi Qaxariaya müraciət hazırlayıblar. Müraciətin hazırlanmasında və Azərbaycandilli universitetin təsis edilməsi istiqamətində aktiv fəaliyyət göstərən iqtisadiyyat üzrə fəlsəfə doktoru, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Aygül İsayeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Gürcüstanda Azərbaycandilli ali məktəbin təsis edilməsi ilə bağlı təbliğat və imzatoplama kampaniyası uğurla davam etdirilir. O qeyd etdi ki, Gürcüstanda Azərbaycandilli universitetin təsis edilməsi ilə bağlı soydaşlarımız ciddi dəstək verirlər. "Biz Gürcüstanda Azərbaycandilli universitetin təsis edilməsi üçün geniş təbliğata başlamışıq. Eyni zamanda da imzatoplama kampaniyasına start vermişik. Hazırda 300-dən artıq imza toplamışıq. Gürcüstanda belə bir ali məktəbin təsis olunmasına dəstək olanlar çoxdur. Bizim əsas məqsədimiz odur ki, bu ali məktəbin təsis edilməsi məsələsini geniş təbliğ edək və bu məlumatı daha çox insana çatdıraq. Bu gün Gürcüstanda yaşayan soydaşlarımızın öz ana dilində ali təhsil almasına böyük zərurət var və öz ana dilində ali təhsil almaq azərbaycanlıların haqqıdır. İmzatoplama kampaniyası başa çatdıqdan sonra biz Gürcüstanda Azərbaycandilli ali məktəbin təsis edilməsinə dəstək göstərməleri üçün müvafiq qurumlara, o cümlədən də Gürcüstan rəhbərliyinə, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edəcəyik" - deyə A.İsayeva qeyd etdi.

Gürcüstan azərbaycanlıları adından Gürcüstanın Baş nazirinə ünvanlanacaq müraciətdə deyilir:

"...Avropaya inteqrasiya yolunu seçmiş Gürcüstanın bu yolu başa vurması üçün üzərinə götürdüyü əsas öhdəliklərindən biri də ölkəsində yaşayan etnik azlıqların hüquqlarının qorunması, onlara hörmətlə yanaşması, tolerantlığı nümayiş etdirməsidir. Avropaya inteqrasiya üçün öhdəliklərdən də öncə Gürcüstan hökumətinin təhsil ilə bağlı qanunvericiliyinə əsasən, etnik azlıqlar öz ana dillərində təhsil almaq imkanı ilə təmin olunub. Gürcüstan azərbaycanlıları Gürcüstan Konstitusiyasına görə, milli azlıq (ölkədə çoxluq təşkil edən ən böyük milli azlıq azərbaycanlılardır) kimi qəbul olunsa da, bizim ana dilində təhsil almaq hüququmuz ilbəil əlimizdən alınır: 1989-cü ildə Gürcüstanda 183 Azərbaycan məktəbi var idisə, 2019-cu ildə məktəblərin sayı 120-yə endi. Bu məktəblərdən də 80-i Azərbaycan, 40-ı sektor məktəblərdir. Təəssüf ki, gürcü sektoru olan məktəblərdə Azərbaycan dili və ədəbiyyatın keçirilməsi də qadağan edilib.

Təhsil keyfiyyətinin aşağı olması, infrastrukturun müasir tələblərə cavab verməməsi, bəzi məktəblərin qəzalı vəziyyətdə olması və s. Azərbaycandilli məktəblərdə vəziyyəti çətinləşdirir, məktəblərin ən başlıca səbəbi kadr çatışmazlığı olaraq qalır.

A.S.Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunun (sonralar Sulxan-Saba Orbeliani, hazırda isə İlia Çavçavadze adına Tiflis Dövlət Universiteti adlandırılır) Azərbaycan bölməsi vaxtilə Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllimlər yetişdirirdi, təəssüf ki, bu bölmənin bağlanması Azərbaycan məktəblərində kadr çatışmazlığını daha da hiss etdirmək üzrədir.

Azərbaycandilli məktəblərdə kadr çatışmazlığı hazırda təqaüd yaşına çatmış müəllimlərin ikiillik maaşlarını almaq üçün ərizə yazmaqla təqaüdə çıxmaları ilə daha da kəskin hiss olunmaqdadır (müəllimlərin ikiillik maaşlarını almaq üçün ərizə yazmaqla təqaüdə çıxma prosesinin ikinci axını noyabr ayında baş tutacaq, bu isə vəziyyəti daha da gərginləşdirəcək).

Bu gün yaşanan problemlər bir tək Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin çatışmazlığı ilə bağlı deyil. Riyaziyyat, fizika, kimya, biologiya, tarix və s. kimi fənləri tədris edən Azərbaycandilli müəllimlər də çatışmır.

Gürcüstan təhsil qanunvericiliyinə əsasən, Gürcüstan azərbaycanlılarının etnik azlıq kimi ana dilində təhsil almaq hüququ var. Avropaya inteqrasiya etməyin başlıca tələblərindən biri də ölkədə yaşayan etnik, milli azlıqlara qarşı tolerantlıq nümayiş etdirmək, onların hüquqlarının qorunmasıdır. Avropa ölkəsi olan İsveçrədə vətəndaşlar seçimlərindən asılı olaraq, fransız, alman, italyan və ingilis dillərində orta və ali məktəblərdə təhsil ala bilərlər. Ölkədə çoxluq təşkil edən milli azlıq kimi biz öz ana dilimizdə təhsil almaq üçün Gürcüstanda Azərbaycandilli kadrlar hazırlayan universitetin təsis olunmasını tələb edirik. Bu universitetin təsis olunmasına dəstək olmaq üçün Azərbaycan dövlətinin Prezidentinə də müraciət ünvanlayacağıq".

Gürcüstandakı soydaşlarımızın təhsillə bağlı problemlərini hər zaman diqqətdə saxlayan tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, Gürcüstanda artıq 10 ildir milli azlıqlarla bağlı "4+1" dövlət proqramı hazırlanıb: "İlk növbədə qeyd etmək istəyirəm ki, Gürcüstanda rəsmi rəqəmlərə görə, 350 mindən çox, qeyri-rəsmi məlumatlara görə isə yarım milyona yaxın azərbaycanlı yaşayır. Gürcüstanda artıq 10 ildir milli azlıqlarla bağlı "4+1" dövlət proqramı hazırlanıb. Bu proqrama əsasən, orta məktəbi Azərbaycan dilində bitirən şagirdlər ana dillərində imtahan verərək Gürcüstan universitetlərinə qəbul ola bilirlər. Bir il kurs keçərək yaşadığı ölkənin dilini öyrənir və sonrakı təhsillərini gürcü dilində davam etdirirlər. Azərbaycan tərəfindən göndərilən dərsliklər Gürcüstanın təhsil standartlarına və strategiyasına uyğun deyil. Birincisi, onlarda artıq təhsil 12 illikdir. Bundan başqa, Gürcüstan tərəfindən dərsliklər üzrə müəyyən edilmiş meyarlar Azərbaycan tərəfindən yerinə yetirilmir. Onların hər bir sinif üçün dərsliklərində müəyyən olunmuş məlumat, informasiya ağırlığı var. Amma Azərbaycan Təhsil Nazirliyi tərəfindən göndərilən dərsliklər həmin normalara cavab vermir. Azərbaycan tərəfi eynilə bizim öz şagirdlərimiz üçün nəşr etdiyi dərslikləri gürcü dilinə tərcümə edib ora yollayır. Həmən dərsliklər orada heç bir əhəmiyyətə malik deyil. Çünki bizim göndərdiyimiz kitablarla oradakı



şagirdlərin əldə etdikləri informasiyanın əhəmiyyəti yoxdur. Təhsil Nazirliyinin beynəlxalq əlaqələr şöbəsi və dərslik şöbəsi azərbaycanlıların kompakt yaşadıqları ölkələrdə olmalı, onların təhsil standartlarını öyrənərək ona uyğun olaraq dərslikləri çap edib göndərməlidir ki, o şagirdlər üçün faydalı olsun. Təəssüflər olsun ki, bu gün Gürcüstan universitetlərində Azərbaycandilli məktəblər üçün müəllim hazırlayan fakültələr yoxdur. Bu da anadilli ali məktəbin yaradılması zərurətini yaradır. Eyni zamanda da orada belə bir universitet olsa, azərbaycanlı ziyalılar həmvətənlərimiz üçün daha yararlı dərsliklər hazırlayarlar. Təəssüf ki, Azərbaycanın təhsil müəssisələrinə Gürcüstan azərbaycanlıları qəbul ola bilmirlər".

K.Əsədovun bildirdiyinə görə, bunun bir səbəbi fərqli tədris proqramı olsa da, əsas problem isə Azərbaycan qəbul sistemində Gürcüstandakı azərbaycanlılara qarşı yaradılan süni problemlərdir. Dünyada qəbul olunmuş beynəlxalq qanunlar var ki, xarici ölkə vətəndaşları başqa ölkə universitetlərinə qəbul imtahanı verməyərək müsahibə yolu ilə tələbə adını qazanırlar. Lakin Gürcüstandan gələn azərbaycanlılar xarici ölkə vətəndaşı kimi dəyərləndirilmir və qəbul imtahanlarına cəlb edilirlər. Onlara yalnız ödənişli əsaslarla təhsil almaq hüququ verilir ki, bu da doğru deyil.

Ona görə də Azərbaycandilli məktəblərin kadr problemini həll etmək, eyni zamanda, strateji yerlərə həmvətənlərimiz üçün daha əlverişli qəbul olunması üçün onların ali təhsil alması zəruridir. Gürcüstandakı soydaşlarımızın ali təhsil alması üçün bu ölkədə Azərbaycandilli ali məktəbin təsis edilməsi vacibdir".

***İradə SARIYEVA***

№ 168 (4066) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

21-23 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Ukraynada ən uzun tramvay istifadəyə verildi

**Odessa şəhərində Ukraynanın ən uzun tramvayı istifadəyə verilb.**

"Qafqazinfo" xəbər verir ki, o, eyni anda 280-dək sərnişin daşımaq gücünə malikdir. Tramvayın uzunluğu 30 metrdən bir az çoxdur. Nəqliyyat vasitəsi Odessada "Odesqorelektrtrans"da yığılıb. Bu növ nəqliyyat tezliklə şəhərin bütün tramvay marşrutları üzrə sınaqdan keçiriləcək.




## Elan

Şükürov Novruz Əziz oğlunun adına, Balaxanı neft NQÇİ-dən verilmiş evin orderi itdiyi üçün ehtibarsiz sayılır

"AKT Ko LTD" MMC-nin Allahverdiyev Ramil Mehman oğluna verdiyi maliyyə arayışı itdiyinə görə etibarsız sayılır.

Hüseynov Elxan Vəliyət oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, M.Əliyev küçəsi, ev 231, mənzil 39 ünvanına məxsus qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Orucəliyev Pərviz Polad oğluna "Azər-Ros" MTK tərəfindən verilmiş №72 müqavilə itdiyi üçün (ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Hüseynov küçəsi, blok №5, ev №5/7, mənzil № 387) etibarsız sayılır.

Məmmədova Yeganə Vaqif qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız saylır.

Musayeva Lamiyə Tapdıq qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Nəzərli Nilgün Rəşad qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyev Məhəmməd Valeh oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İmaməliyeva Könül Bəylər qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rəhimli Zərifə Vahid qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyev Mamed Qubad oğluna məxsus, Ağcabədi rayonu, H.Hacıyev küçəsi, təzə xəstəxana ilə üzbəüz yerləşən evin (reyestr №608013000379-10301) çıxarışı itdiyi üçün etibarsız sayılır.

Allahverdiyev Ramil Mehman oğluna "AKTKO LTD" MMC tərəfindən verilmiş maliyyə arayışı və digər sənədlər itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospekti, 566-cı məhəllə, 1-ci giriş, mənzil 52).

Hüseynov Əbdüləli Lətif oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, A.Səhhət küçəsi, ev 71 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM №152999) itdiyi üçün etibarsız sayılır.

"Eldar kiçik müəssisəsi", Bakı şəhəri, Nizami rayonu, 815-ci keçiddəki 160 "A" saylı binanın qarşısında çörək və bulka məmulatlarının 11 iyul 1997-ci il tarixli, 636 №li sərəncamı itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın baş sponsorluğu ilə ən baxımlı intellektual yarış start götürür

**"Nar"ın baş sponsorluğu ilə ölkənin ən maraqlı və baxımlı intellektual yarışı olan "Breyn Rinq"in 14-cü mövsümü start götürür. Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar" artıq 7 ildir "Breyn Rinq" intellektual yarışının baş sponsorudur. Bu mövsüm mübarizəyə ölkə üzrə 34 komanda qoşulacaq. Yarış hər həftənin bazar günü saat 20:00-də İctimai Televiziyada yayımlanacaq. İlk oyun sentyabrın 22-si start götürəcək və yanvarın əvvəlinə qədər davam edəcək.**

"11 universitet və 15 region komandası da daxil olmaqla, bütün komandaların bir məqsədi var, o da qalib gəlmək. İlk efirə çıxdığımız gündən verilişdə çox şey dəyişdi. Neçə yeni komanda yarandı, neçə güclü komanda dağıldı və hətta bu il studiyamız da dəyişdi. 7 ildə dəyişməyən baş sponsorumuz "Nar"a təşəkkür edirik!", - deyə "Breyn Rinq" yarışının aparıcısı DJ Fateh bildirib.

Qeyd edək ki, "Bilik" kuboku və "Nar" tərəfindən təsis edilmiş "Nar" kubokunun qalibləri Azərbaycan çempionu titulu uğrunda yarışmaq hüququ əldə edir. Bu mövsüm isə komandalar "Bilik" kuboku uğrunda mübarizə aparacaq. "Bilik" kubokunun qalibi ötən mövsüm "Nar" kubokunun qalibi olmuş "Nar" komandası ilə "Breyn Rinq 2019" Azərbaycan çempionu titulu uğrunda mübarizə aparacaq.

Hər il olduğu kimi, bu il də müsabiqə izləyiciləri üçün "Nar"ın "Facebook" səhifəsində xüsusi müsabiqə keçiriləcək. "Breyn Rinq"in efirdə yayımlandığı saatda səhifədə paylaşılan suala ən tez cavab verən şəxs "Nar" tərəfindən xüsusi hədiyyə ilə mükafatlandırılacaq.

Qeyd edək ki, "Nar" gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafını stimullaşdırmaq məqsədilə müxtəlif intellektual oyunları dəstəkləyir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.




**Qoç** - Günün ilk yarısında situasiya sizə yaxşı şanslar və irəliləyiş imkanları yaradır. Yeni, faydalı əlaqələr yaratmağa çalışın. Mədəniyyətsiz, kobud, bisavad insanlardan mümkün qədər uzaq durun.


**Buğa** - Məhsuldar, səmərəli gündür. Peşəkar fəaliyyətinizdə kommunikativ məqamlar çoxdursa, onlara diqqət yetirin. Yaxın ətrafınızdakı insanlarla ünsiyyət fayda verməklə yanaşı, əhvalınızı yaxşılaşdıra bilər.


**Əkizlər** - Sadə məsələləri süni şəkildə mürəkkəbləşdirməyin. Mühüm işlərin hamısını eyni vaxtda həll etmək mümkün deyil. Səbrli, təmkinli olun. Cari problemlərin həlli ilə məşğul olun.


**Xərçəng** - Pis zaman deyil. Günün ilk yarısında işlər pis olmayacaq. Önəmli məsələnin həllinə başlayın və onu vaxtında tamamlayın. Çoxdan başladığınız, amma yarımçıq qalmış layihəni başa vurmağa çalışın.


**Şir** - Günün ilk yarısında rutin işləri görərkən bir qədər kreativ davranın. Yaşam və ya fəaliyyət arealında dəyişikliklər etmək olar. Quru rəsmiyyətçilik uğur vəd etmir. Bir qədər asudə dolanmaq, sərbəst olmaq mümkündür.


**Qız** - Hisslərə qapılmayın, emosional olmayın. Praqmat davranın, ikinci dərəcəli saydığınız məsələləri qulaqardına vurmayın. Hər deyilənə inanmayın. Durumla bağlı təfsilatlı məlumatlar əldə etməmiş qərar verməyin.


**Tərəzi** - Sofitlər qarşısında duraraq parlamağa çalışmayın. Təsir imkanlarınızı genişləndirmək üçün əla gündür. Tərəfdaş, şərik və dostların sayını artıra bilərsiniz. Axşam saatlarını sevdiyiniz insana həsr edin.


**Əqrəb** - Qarışıq, laübəli, çox çətin gündür. Çalışdığınız kollektivdə əks cins mənsubu ilə münasibətləriniz geriləcək. Ehtiyatlı olun, rəqiblər fəallaşıblar. Sərvaxt davranın, ətrafınızda baş verən hadisələri diqqətlə izləyin.


**Oxatan** - Qayda və qanunları pozmayın. Azadlıq hissi ifrata vararaq xaos istəyinə çevrilməməlidir. Bəzi stereotiplərdən qurtulmaqla daha sürətlə irəliləyə bilərsiniz. Ətrafınızdakı durumu obyektiv dəyərləndirin.


**Oğlaq** - Sizin üçün yeni sahədə nabələd insan kimi davranmayın. Peşəkar fəaliyyət müstəvisində bilik və bacarıqlarınızı artırmağa çalışın. Əmək prosesini intensivləşdirmək üçün ideyalara ehtiyac var.


**Dolça** - Avantürizm ruhu sizi mənasız risklərə sövq etməməlidir. Vaxtında dayanmağı, qəbul edilmiş oyun qaydalarını pozmamağa çalışın. Biznes tərəfdaşlığını uğurla inkişaf etdirmək olar.


**Balıqlar** - Günün ilk yarısından etibarən şübhələrə qapılmayın. Qeyri-müəyyənliklər sizi narahat etməsin. Dəyər verdiyiniz insanlarla münasibətlərdə sirlərin və mübhəmlərin sayını artırmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "İnstaqram"dan ən çox istifadə edən ölkələr...




**Dünyada ən böyük "İnstaqram" kütləsinə sahib ölkələrin siyahısı açıqlanıb. "Axşam.az" bildirir ki,siyahıda ilk yeri Amerika tutub.**

"İnstaqram"ın ən çox istifadə edildiyi ölkələri təqdim edirik: 10. Meksika - 21.9 milyon nəfər. 9. Birləşmiş Krallıq - 23 milyon nəfər. 8. İran - 24 milyon nəfər. 7. Yaponiya - 25 milyon nəfər. 6. Rusiya - 32 milyon nəfər. 5. Türkiyə - 37 milyon nəfər. 4. İndoneziya - 59 milyon nəfər. 3. Braziliya - 64 milyon nəfər. 2. Hindistan - 71 milyon nəfər. 1. ABŞ - 121 milyon nəfər.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.